*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

24 yanvar 2026-cı il №03 (9158) www.muallim.edu.az muallim@media.edu.az

**Qarabağ və İstanbul Texniki universitetləri arasında elm və təhsildə yeni strateji əməkdaşlıq mərhələsi başlayır**

# BİZ QAFQAZDA ƏBƏDİ SÜLHƏ NAİL OLACAĞIQ




## Davosda "Sülh Şurasının Nizamnaməsi" sənədi imzalanıb

### Prezident İlham Əliyev mərasimdə iştirak edib

Yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədinin imzalanma mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" ("Board of Peace Charter") sənədini imzaladılar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda "Euronews" televiziyasına müsahibə verib.

**Müxbir:** Sizi təbrik etmək istəyirəm. Dünən öyrəndim ki, göstərdiyiniz bütün səylərə görə Siz "Zayed İnsan Qardaşlığı Mükafatı"nı alacaqsınız. Təbii ki, bununla gəlib növbəti suala çıxıram. Bildiyiniz kimi, onilliklər ərzində rəqabətə əsaslanan maraq, təsir və dəyişən müttəfiqlikdən sonra Ermənistanla tarixi sülh razılaşması ilə Cənubi Qafqaz qlobal səviyyədə sürətlə inkişaf edir. Regionda risk ilə imkanlar arasında cari tarazlığı necə dəyərləndirirsiniz?




**- Əvvəlcə, təbriklərə görə minnətdaram. Belə nüfuzlu mükafatı almaq mənim üçün böyük şərəfdir. Xüsusən də o, Birləşmiş Ərəb Əmirliklərinin qurucusu, mərhum Şeyx Zayedin adını daşıyır. Mən bu qərarı otuz ildən artıq müddətdə qan tökülməsindən, münaqişə və müharibələrdən sonra Qafqazda sülhün qurulmasında səylərimizə verilən qiymət kimi qəbul edirəm. Bu gün Cənubi Qafqaz, həmçinin yeni inkişaf mərhələsinə daxil olur. Biz beş-altı aydır sülh şəraitində yaşayırıq. Buna öyrəşirik. Öz müstəqillik tariximizdə heç zaman sülh şəraitində yaşamamışıq. Xüsusi hissdir və əlbəttə ki, böyük fürsətdir. Bu gün Azərbaycan ilə Ermənistan arasında münasibətlər artıq əməkdaşlığa çevrilir. Biz Ermənistana gedən yüklərin daşınmasında bütün məhdudiyyətləri aradan qaldırdıq. Bundan əlavə, biz Ermənistanın böyük dərəcədə asılı olduğu əsas malların, ilk növbədə neft məhsullarının həmin ölkəyə təchizatına başlamışıq. Bu vəziyyətdən hamı udur. Beləliklə, düşünürəm ki, Ermənistan və Azərbaycanın, eləcə də vətəndaş cəmiyyətinin birgə səyləri ilə biz Qafqazda uzunmüddətli deyil, əbədi sülhə nail olacağıq. Məqsədimiz budur.**

**Prezident İlham Əliyev Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyi səylərə görə "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülüb**

## Xilaskar müəllim



Bax səh. 5

"İlk dəfə eşidəndə ki, Xankəndi şəhərində Qarabağ Universiteti yaradılır, düşündüm ki, bəlkə bir gün bu universitetdə tibb fakültəsi də olar. O vaxt bunu sadəcə xəyal hesab edirdim. Az müddət sonra bu xəyal gerçək oldu və mən Qarabağ Universitetinin "Tibb və sağlamlıq elmləri" fakültəsinin müəllimi oldum".

## Azərbaycanda memarlıq təhsilinin konseptual transformasiyası:

### Dəyərlər, çağırışlar, perspektivlər

**"Azərbaycanın memarlıq təhsilinin əsası ötən əsrin əvvəllərində - 1920-ci ildə qoyulub. O dövrdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti adlanan ali məktəbin tərkibində fəaliyyət göstərən İnşaat fakültəsinin Memarlıq bölməsi bu istiqamətdə kadr hazırlığının ilkin ünvanı olub"**



Bax səh. 4

## DÜZGÜN QİDALANMA:



### Nələrə diqqət edək

**Gündəlik rasionda süd və süd məhsulları, ət, balıq, yumurta, meyvə-tərəvəzlər, taxıl məhsulları və faydalı yağlar mütləq yer almalıdır.**

Bax səh. 7

# Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi

**Prezident İlham ƏLİYEV:**

**"Azərbaycan xalqına qarşı növbəti təxribat 1990-cı ildə törədilmişdir - Qanlı Yanvar cinayəti. Günahsız insanlar öldürülmüşdür, qətlə yetirilmişdir. 20 Yanvar faciəsi Azərbaycan xalqına qarşı törədilmiş böyük cinayətdir. Heydər Əliyev dərhal Öz səsini ucaltdı. Ertəsi gün Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlmişdir. Mən də Onunla bərabər orada idim. Mətbuat konfransında sovet rəhbərliyini ittiham etmişdir. Onların hərəkətlərini pisləmişdir. Deyə bilərəm ki, o vaxt sovet məkanında bu, çox nadir bir hadisə idi. Çünki Sovet İttifaqının dağılmasına hələ 2 il vaxt var idi. Heç kimin ağlına gələ bilməzdi ki, Sovet İttifaqı kimi nəhəng bir dövlət dağıla bilər. O vaxt belə cəsarətli addımın atılması bir daha onu göstərdi ki, Heydər Əliyev Öz xalqına nə qədər bağlıdır, bu insan nə qədər fədakardır, nə qədər cəsarətlidir... 20 Yanvar günü bizim böyük faciəmizdir, ancaq eyni zamanda, Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Azərbaycan xalqı öz iradəsini göstərdi... 20 Yanvarda sovet rejiminin hərbi, siyasi və mənəvi təcavüzünə məruz qalmış Azərbaycan xalqı öz tarixi qəhrəmanlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycanda haqq-ədalətin müdafiəsi yolunda canlarından keçmiş vətən övladları Qanlı Yanvarda xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar".**

## Prezident İlham Əliyev 20 Yanvar şəhidlərinin xatirəsini yad edib







Yanvarın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin əziz xatirəsini yad edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

***

20 Yanvar hadisələri Azərbaycan xalqının tarixinə həm faciəli, kədərli, həm də qəhrəmanlıq, rəşadət səhifəsi kimi daxil olub, müstəqillik, azadlıq uğrunda mübarizənin və yenilməz iradənin rəmzinə çevrilib. 36 il əvvəl doğma Vətəninin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən üstün tutan Azərbaycanın mərd övladları həmin qanlı gecədə canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Həmin gün Azərbaycan xalqı öz azadlığı və müstəqilliyi uğrunda ilk şəhidlərini verdi. Azadlığa gedən yolda həyatlarını qurban verən Vətən övladları misilsiz fədakarlıqları ilə xalqımızın qəhrəmanlıq salnaməsinə tarixi səhifə yazdılar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur.

Qanlı 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymətin verilməsi ilə bağlı məsələ ilk dəfə məhz Ümummilli Lider Heydər Əliyevin sayəsində həllini tapdı. Faciənin səhəri günü - 1990-cı il yanvarın 21-də Ulu Öndər Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək xalqla birgə olduğunu bildirdi, bu qırğını törədənləri pisləyən kəskin bəyanatla çıxış etdi. Dahi şəxsiyyət bu hadisənin hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu bəyan edərək, onun törədilməsini kobud siyasi səhv kimi qiymətləndirdi. Xalqımızın başına gətirilən müsibəti dünyaya çatdıran Ümummilli Lider 20 Yanvar faciəsinin Azərbaycanın ovaxtkı rəhbərlərinin xalqımıza qarşı xəyanəti nəticəsində baş verdiyini və bunun cinayət olduğunu dəfələrlə bəyan edib. Bununla da Ulu Öndər cəsarətini, mərdliyini, xalqının sədaqətli oğlu olduğunu bir daha nümayiş etdirib.

1990-cı ilin iyulunda Moskvadan Vətənə qayıdan Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həmin il noyabrın 21-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində 20 Yanvar faciəsinə ilk dəfə siyasi-hüquqi qiymət verən qərar qəbul olundu. Bu qərar Ulu Öndər Heydər Əliyev qətiyyətinin təzahürü kimi tarixə düşdü.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra da 1993-cü ilə qədər iqtidarda olanların heç biri faciə ilə bağlı əsl həqiqəti aşkar etməyə özündə cəsarət tapmadı. Yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü ildə 20 Yanvar hadisələrinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir. Vətənimizin azadlığı uğrunda mübarizədə canlarından keçən şəhidlərin xatirəsi daim əziz tutulduğu kimi, onların ailə üzvləri, doğmaları da hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. 20 Yanvar şəhidlərinin ailə üzvlərinin və əlillərinin sosial müdafiəsinin təmin olunması istiqamətində mütəmadi tədbirlər həyata keçirilir. Onların pensiya təminatı, mənzil şəraitinin yaxşılaşdırılması, yaşayış səviyyəsinin yüksəldilməsi ilə bağlı qanunvericilik bazası yaradılıb.

Ulu Öndərin, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş bütün şəhidlərin ruhları bu gün şaddır. Çünki Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu xalqımızın 30 illik həsrətinə son qoydu, torpaqlarımızı erməni işğalından azad etdi və suverenliyimiz tam bərpa olundu. İndi bütün ərazilərimizdə Azərbaycanın üçrəngli Bayrağı qürurla dalğalanır. Hazırda Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri gedir, Böyük Qayıdış Proqramı uğurla icra olunur.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası bütün şəhidlərimizin, o cümlədən 20 Yanvar faciəsi qurbanlarının qanının yerdə qalmadığını sübut edir.

## Şəhidlər xiyabanı ziyarət edilib





Yanvarın 20-də Elm və Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Şəhidlər xiyabanını ziyarət edib. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi hörmət və ehtiramla yad edilib, məzarları üzərinə qərənfillər düzülüb.

## Paytaxt məktəblərində tariximizin qəhrəmanlıq səhifəsinə nəzər salınıb

Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində 20 Yanvar-Ümumxalq Hüzn Gününə həsr olunmuş sinifdaxili tədbirlər keçirilib, təhsil müəssisələrinin pedaqoji kollektiv və şagirdlərinin Şəhidlər xiyabanına ziyarətləri təşkil olunub.

20 Yanvar faciəsinin 36-cı ildönümü ilə əlaqədar keçirilən tədbirlər Dövlət Himninin səsləndirilməsi və Vətən şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Şagirdlərə 1990-cı ilin 20 Yanvar hadisələrinin baş verdiyi tarixi dövr haqqında ətraflı məlumat verilib, xalqımızın azadlıq və müstəqillik uğrunda apardığı mübarizə əsl qəhrəmanlıq nümunəsi kimi dəyərləndirilib.

Tədbirlərdə şagirdlər 20 Yanvar hadisələrinə həsr edilmiş şeirlər söyləyib, ədəbi-bədii kompozisiyalar nümayiş etdiriblər.



# Azərbaycan və Türkiyənin ali təhsil əlaqələri yeni inkişaf mərhələsində




## Emin Əmrullayev Yusuf Tekinlə görüşüb

Yanvarın 21-də elm və təhsil naziri Emin Əmrullayev Türkiyəyə rəsmi səfəri çərçivəsində Türkiyənin milli təhsil naziri Yusuf Tekin ilə görüşüb. Görüş zamanı iki ölkə arasında ümumi və peşə təhsili sahəsində əməkdaşlığın inkişaf perspektivlərinə dair müzakirələr aparılıb.

## Türkiyənin Ali Təhsil Şurasının sədri ilə görüş

Yanvarın 21-də elm və təhsil naziri Emin Əmrullayevin Türkiyəyə rəsmi səfəri çərçivəsində Ali Təhsil Şurasının (YÖK) sədri Erol Özvarla görüş keçirilib. Görüşdə iki ölkə arasında ali təhsil sahəsində strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin uğurlu inkişafından məmnunluq ifadə olunub, iki ölkənin ali təhsil müəssisələri arasında uzunmüddətli səmərəli əməkdaşlığın nəticələri təqdir edilib.



## Elm və təhsil naziri Hacettepe və Ankara universitetlərində olub

Yanvarın 21-də elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyəyə rəsmi səfər çərçivəsində Hacettepe və Ankara universitetlərini ziyarət edib.

Ziyarət zamanı ali təhsil müəssisələrinin rəhbər heyəti ilə görüşlər keçirilib. Görüşlərdə ali təhsil sahəsində əməkdaşlığın genişləndirilməsi, birgə elmi-tədqiqat layihələri və akademik mübadilə imkanları müzakirə edilib, həmçinin Qarabağ Universiteti ilə sözügedən universitetlər arasında əməkdaşlıq imkanları ətrafında fikir mübadiləsi aparılıb.




## Qarabağ və İstanbul Texniki universitetləri arasında elm və təhsildə yeni strateji əməkdaşlıq mərhələsi başlayır

Elm və təhsil naziri Emin Əmrullayevin Türkiyəyə rəsmi səfəri çərçivəsində Ankarada Qarabağ Universiteti ilə İstanbul Texniki Universiteti (İTÜ) arasında elm və təhsil sahələrində əməkdaşlığa dair Anlaşma Memorandumunun imzalanması mərasimi keçirilib.

Elm və təhsil naziri Emin Əmrullayev və Türkiyənin Ali Təhsil Şurasının (YÖK) sədri Erol Özvarın iştirak etdiyi mərasimdə həmin sənədi Qarabağ Universitetinin rektoru Şahin Bayramov və İstanbul Texniki Universitetinin rektoru Hasan Mandal imzalayıblar.

YÖK sədri Erol Özvar çıxışında diqqəti iki qardaş ölkəni birləşdirən tarixi bağlara çəkib, ali təhsil sahəsində əməkdaşlığın Türkiyə və Azərbaycanın ortaq gələcəyinə töhfə olduğunu vurğulayıb. Qarabağ Universitetini bütün region üçün yeni bilik və innovasiya mərkəzi kimi qiymətləndirən Erol Özvar Türkiyənin ən nüfuzlu ali təhsil müəssisələrindən biri olan İstanbul Texniki Universitetinin geniş təcrübəsinin Qarabağ Universitetinin daha da inkişafına əhəmiyyətli dərəcədə təkan verəcəyinə əminliyini ifadə edib.



Elm və təhsil naziri Emin Əmrullayev öz növbəsində Qarabağ Universiteti ilə İstanbul Texniki Universiteti arasında imzalanan sənədi iki qardaş ölkənin elm və təhsil sahələrində əməkdaşlığının yeni platforması adlandırıb. Nazir Qarabağ Universitetinin ölkəmiz və bütün Türk dünyası üçün əhəmiyyətini vurğulayıb və İTÜ ilə əməkdaşlığın yeni yaradılan universitetin mövqelərinin möhkəmlənməsinə töhfə verəcəyinə inamını qeyd edib.

Qeyd edək ki, Qarabağ Universiteti və İstanbul Texniki Universiteti arasında imzalanan Anlaşma Memorandumuna əsasən, bakalavriat və magistratura səviyyələrində təhsil alan tələbələrin, pedaqoji heyət və ya tədqiqatçı alimlərin qarşılıqlı mübadiləsi, birgə tədqiqat fəaliyyəti üzrə əməkdaşlıq, elmi materiallar və informasiya mübadiləsi, qarşılıqlı maraq doğuran sahələrdə ikili diplom proqramlarının hazırlanması, Qarabağ Universitetinin Mühəndislik fakültəsi üçün tədris və tədqiqat laboratoriyalarının birgə layihələndirməsi və idarə edilməsi nəzərdə tutulur.

# Leyla Əliyeva Əddis-Əbəbədə sosial, mədəni obyektləri və İnternat Məktəbini ziyarət edib





Leyla Əliyeva Efiopiyanın paytaxtı Əddis-Əbəbədə bir sıra sosial və mədəni obyektlərlə tanış olub, İnternat Məktəbini ziyarət edib.

"Azərbaycan müəllimi" AZƏRTAC-a istinadən xəbər verir ki, Leyla Əliyeva əvvəlcə Berhan Gözdən Əlillər üçün İnternat Məktəbini ziyarət edib.

Efiopiyanın birinci xanımı Zinaş Tayaçevin təşəbbüsü və himayəsi ilə inşa olunan məktəb ölkənin bütün bölgələrindən seçilmiş 9-cu sinifdən 12-ci sinfə qədər gözdən əlilliyi olan və görmə məhdudiyyətli 300-dən çox şagirdə xidmət göstərir. Məktəb milli tədris proqramını şagirdlərinin ehtiyaclarına uyğunlaşdıraraq Brayl əlifbasından, audioresurslar və kompüter ekran oxuyucusu texnologiyasından istifadə edir. Əsas akademik fənlərlə yanaşı, şagirdlər Brayl əlifbasını, orientasiya və hərəkətlilik, həyat bacarıqları və musiqi, əl işləri, kompüter istifadəsi üzrə təlimlər keçirlər. Akademik öyrənməni praktiki bacarıqlarla birləşdirərək, Berhan Gözdən Əlillər üçün İnternat Məktəbi şagirdləri ali təhsildə uğur qazanmağa və cəmiyyətdə müstəqil, məhsuldar həyata hazırlaşmağa imkan verir.

***

Sonra Leyla Əliyeva "Lenegewa" Qadınların Reabilitasiya və Bacarıqların İnkişafı Mərkəzində olub.

Bildirilib ki, Əddis-Əbəbə şəhərinin meri xanım Adaneç Abiebenin təşəbbüsü ilə tikilən mərkəzin fəaliyyəti səfil həyatı ilə üzləşən və insan alverinin qurbanı olan minə yaxın qadının həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib. Kompleks yanaşma prinsipi ilə fəaliyyət göstərən mərkəz 13 binadan ibarətdir. Buraya müasir sinif otaqları, yataqxanalar, peşə təlimi mərkəzləri, emalatxanalar, həmçinin psixoloji və tibbi yardım şöbələri daxildir.

Bildirilib ki, müəssisəyə qəbul edilən həssas təbəqədən olan qadınlar gələcəkdə işə düzəlmək üçün zəruri bacarıqlarla təmin edən 3-6 aylıq intensiv təlim proqramlarına cəlb olunurlar.

Onların potensialını maksimum səviyyədə istifadə etmək üçün kompüter savadlılığı, tekstil və tikiş, elektronika, gözəllik xidmətləri, tədbirlərin təşkili üçün qida xidmətləri və digər istiqamətlər üzrə kurslar təklif olunur.

***

Leyla Əliyeva həmçinin Efiopiyanın Milli Sarayı ilə tanış olub.

Saray bu ölkənin monarxlarının mirasını və xalqın sarsılmaz ruhunu təcəssüm etdirir. Sarayın tarixi, əsrlər boyu ölkəni formalaşdıran hakimiyyət, ənənə və müasirlik hekayələri ilə sıx bağlıdır. 1955-ci ildə imperator Hayle Selassienin gümüş yubileyini qeyd etmək üçün inşa edilən saray, ona həyat yoldaşı Menen Asfav tərəfindən hədiyyə edilib. İtalyan memar Raffaele Petrone tərəfindən layihələndirilən bina, yerli memarlıq motivlərini beynəlxalq üslublarla birləşdirərək ölkənin mədəni müxtəlifliyini və qlobal əlaqələrini əks etdirir.

Muzeydə imperatorun zəngin avtomobil kolleksiyası, həmçinin fəvvarələr, heykəllər və sıx yaşıllıqlarla bəzədilmiş saray kompleksi nümayiş etdirilir.

# Ali təhsil müəssisələri arasında əməkdaşlıq genişlənir



Yanvarın 16-da elm və təhsil nazirinin müavini Həsən Həsənli Türkiyənin Ufuk Universitetinin rektoru Ahmet Hakan Haliloğlu ilə görüşüb.

Görüş çərçivəsində Ufuk Universiteti ilə Azərbaycan Respublikasının ali təhsil müəssisələri arasında əməkdaşlıq imkanları müzakirə edilib.

# "Times Higher Education" fənn reytinqlərində Azərbaycan universitetlərinin sayı 4 oldu

Dünyanın nüfuzlu reytinq agentliklərindən biri olan "Times Higher Education" (THE) tərəfindən 2026-cı il üçün sahələr üzrə fənn reytinqləri dərc olunub. 11 fənn sahəsi üzrə dərc edilən reytinqə Azərbaycandan daxil olan universitetlərin sayı ilk dəfə 4-ə yüksəlib. Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Texniki Universiteti müvafiq sahələr üzrə reytinqdə yer alıblar. Qeyd edək ki, 2 universitetimiz (Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Texniki Universiteti) müvafiq fənn reytinqlərinə ilk dəfə bu il daxil olub. Əlavə olaraq, Azərbaycan universitetlərinin təmsil olunduğu fənn sahələrinin sayı da ilk dəfə 4-ə yüksəlib. Belə ki, "Mühəndislik" və "Fizika elmləri" sahələri ilə yanaşı, bu ildən Azərbaycan "Biznes və iqtisadiyyat" və "Sosial elmlər" sahələri üzrə də aşağıdakı kimi təmsil olunur:




**Mühəndislik** — Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti və Azərbaycan Texniki Universiteti;

**Fizika elmləri** — Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti və Azərbaycan Texniki Universiteti;

**Biznes və iqtisadiyyat** — Azərbaycan Dövlət İqtisad Universiteti;

**Sosial elmlər** — Azərbaycan Dövlət İqtisad Universiteti.

Qeyd edək ki, THE-nin fənn reytinqlərinin qiymətləndirmə metodologiyasında 5 istiqamət (tədris, tədqiqat mühiti, tədqiqat keyfiyyəti, sənaye və beynəlmiləlləşmə) üzrə 18 meyar nəzərə alınır.

# "Şəhərsalma və Memarlıq İli"

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Memarlıq fakültəsi ölkəmizdə memarlıq ali təhsilinin əsasını qoymuş, zəngin tarixə və ənənələrə malik təhsil mərkəzlərindən biridir. 100 ildən artıq fəaliyyəti dövründə bu fakültə yalnız memarlar yetişdirməklə kifayətlənməyib, həm də şəhərsalmanın, abidələrin qorunması və bərpasının, memarlıq düşüncəsinin formalaşmasının mühüm akademik məkanı olmuşdur. Azərbaycanın memarlıq təhsilinin əsası ötən əsrin əvvəllərində - 1920-ci ildə qoyulub. O dövrdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti adlanan ali məktəbin tərkibində fəaliyyət göstərən İnşaat fakültəsinin Memarlıq bölməsi bu istiqamətdə kadr hazırlığının ilkin ünvanı olub. 1951-ci ildən bu iş Azərbaycan Politexnik İnstitutunun tərkibində davam etdirilib və nəhayət, 1968-ci ildə müstəqil Memarlıq fakültəsi formalaşdı. 1975-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Cənubi Qafqazda ilk İnşaat Mühəndisləri İnstitutunun yaradılması ilə memarlıq təhsili yeni mərhələyə qədəm qoydu.**



## Azərbaycanda memarlıq təhsilinin konseptual transformasiyası:

## Dəyərlər, çağırışlar, perspektivlər

**I YAZI**

Bu gün fakültəmiz 100 ildən artıq yaşı olan, zəngin ənənələri ilə seçilən elm və tədris ocağıdır. Yalnız Azərbaycanın deyil, ümumiyyətlə, regionun memarlıq təhsili tarixində mühüm yerə malik olan fakültə, həm digər fakültələr, həm də ölkəmizdə "Memarlıq" ixtisası üzrə fəaliyyət göstərən ali məktəblər arasında daim ön sıralarda qərarlaşıb. Bu üstünlüyün təməlində isə professor-müəllim heyətimizin yüksək elmi və peşəkar potensialı dayanır.

Hazırda fakültədə 7 memarlıq üzrə elmlər doktoru, 10 professor, 21 fəlsəfə doktoru və dosent fəaliyyət göstərir. Onlar memarlıq layihələndirilməsi, şəhərsalma, abidələrin bərpası sahələrində ölkəmizin tanınmış alimləri və praktik mütəxəssisləridir. Fakültəmizdə həmçinin "Şöhrət"və "Şərəf" ordenli pedaqoqlar, Əməkdar memarlar və Dövlət mükafatı laureatları, Beynəlxalq Memarlıq Akademiyasının (MACA) həqiqi və müxbir üzvləri tədris prosesində bilik və təcrübələrini gənc memarlarla bölüşürlər. Biz bu tarixi irsə arxalanaraq, onu



müasir çağırışlarla sintez edir və beynəlxalq təhsil standartlarına uyğun təhsil modeli qururuq. Bu baxımdan Bolonya sisteminə inteqrasiya, elektron universitet modelinin tətbiqi və fakültəmizin nüfuzunun artması - bütün bunlar son illər ərzində əldə etdiyimiz mühüm nailiyyətlərdəndir.

Memarlıq fakültəsinin bu gün əldə etdiyi nüfuz və elmi-pedaqoji nailiyyətlər, şübhəsiz ki, onun təməlini qoymuş və inkişafında mühüm rol oynamış görkəmli alim və memarların fədakar əməyinin nəticəsidir. Fakültəmizin ilk dekanı olmuş dosent Boris Revazovun adı bu kontekstdə xüsusilə hörmətlə xatırlanır. Ardınca Həsənağa Məcidov, Elcarun Kanukov, Ramiz Əbdülrəhimov, Tofiq Abdullayev kimi tanınmış simaların rəhbərliyi ilə fakültəmiz həm tədris, həm də elmi istiqamətdə mühüm irəliləyişlər əldə edib.

Fəxrlə qeyd etməliyik ki, Memarlıq fakültəsinin məzunları Azərbaycanın memarlıq tarixində və memarlıq təhsilində silinməz izlər qoyublar. Mikayıl Useynov, Sadıq Dadaşov, Ənvər Qasımzadə, Əbdülvahab Salamzadə, Kamal Məmmədbəyov, Qəzənfər Əlizadə, Davud Axundov, Kamil Məmmədzadə, Fikrət Hüseynov, Turan Muradxanova, Tələt Dadaşov, Nəriman Əliyev, Rafael Həsənov kimi şəxslər bu məktəbin yetirmələri olub.

Hazırda fakültədə ölkəmizin memarlıq elminin aparıcı nümayəndələri tədris prosesində yaxından iştirak edirlər. Onlar arasında AzMİU-nun rektoru, memarlıq doktoru, professor Gülçöhrə Məmmədova, Memarlar İttifaqının İdarə Heyətinin sədri professor Elbay Qasımzadə, Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi professor Səbinə Hacıyeva, professorlar Ramiz Əbdülrəhimov, Rayihə Əmənzadə, Nizami Nağıyev, Aybəniz Həsənova, Şəhla Qəhrəmanova, Elkin Ələsgərov, dosentlər Nərmin Yusifli, Xəlil Cəfərov və Nazim Vəliyev və b. kimi görkəmli alim və praktik memarlar var.

Eyni zamanda, fakültə əməkdaşları tərəfindən tərtib olunmuş 50-dən çox monoqrafiya, dərslik və metodik vəsait memarlıq sahəsində tədrisin elmi əsaslarla təmin olunmasına xidmət edir. Bu nəşrlər - "Qafqaz Albaniyasının memarlığı", "Azərbaycanın qədim və orta əsrlər memarlığı", "Memarlıq abidələrinin bərpasının əsasları", "Ümumdünya memarlıq tarixi", "Şəhərsalmanın layihələndirilməsi", "Memarlığın tipologiyası", "Landşaft memarlığı" kimi fundamental əsərlər gənc memarların formalaşmasında bu gün də əsas mənbə kimi istifadə olunur. 2013-cü ildə Azərbaycan Memarlar İttifaqının böyük layihəsi sayılan və cənab Prezident İlham Əliyevin bilavasitə dəstəyilə Azərbaycan, ingilis və rus dillərində nəfis şəkildə çap edilmiş memarlığa aid 25 adda kitabın müəlliflərinin böyük əksəriyyəti fakültəmizin professor-müəllim heyətidir. Nəşr olunmuş kitablar arasında ən qədim dövrlərdən müasir günümüzə qədər memarlığımızın inkişafını əks etdirən "Azərbaycan memarlıq tarixi" adlı 5 cildliyi xüsusi qeyd etmək istərdim.

Bütün bunları ümumiləşdirsək, əminliklə deyə bilərik ki, bu gün Memarlıq fakültəsi yalnız tarixi irsə söykənən deyil, həm də onu daşıyan, inkişaf etdirən və gələcək nəsillərə ötürən canlı bir akademik mərkəzdir.

Bu gün Memarlıq fakültəsi nəinki Azərbaycanın, həm də beynəlxalq elmi ictimaiyyətin diqqət mərkəzindədir. Britaniya Memarlarının Kral İnstitutu - RIBA tərəfindən iki dəfə ardıcıl olaraq akkreditasiyadan keçməsi bu fakültənin dünya səviyyəsində tanındığının və yüksək tədris keyfiyyətinin sübutudur.

RIBA akkreditasiyası bu gün memarlıq sahəsində beynəlxalq tanınmanın və etimadın ən yüksək göstəricilərindən biridir. Bu nüfuzlu qurumun tələbləri olduqca sərtdir və bu akkreditasiyanı almaq üçün universitetlər tədrisin keyfiyyətindən tutmuş, maddi-texniki baza, müəllim heyəti, dərslik və proqramlar, layihə tapşırıqları, ən başlıcası, tələbələrin təqdim etdiyi portfoliolar və ümumilikdə təhsil mühitinə qədər bütün sahələrdə yüksək standartlara cavab verməlidirlər. Azərbaycan Memarlıq və İnşaat Universiteti olaraq biz ilk dəfə bu akkreditasiyanı 2019-cu ildə aldıq və bu, bizim üçün tarixi bir nailiyyət idi. Həmin il bütün dünyada cəmi 11 ali memarlıq məktəbi bu hüququ qazandı və onların arasında AzMİU-nun Memarlıq fakültəsi də yer aldı. Bu, bizi MDB məkanında RIBA akkreditasiyasına sahib olan yeganə ali məktəbə çevirdi.

Lakin daha önəmlisi odur ki, bu uğur təsadüfi olmadı. 2015-ci ildən başlayaraq universitet rəhbərliyinin, xüsusilə də rektorumuz professor Gülçöhrə Məmmədovanın bilavasitə təşəbbüsü və dəstəyi ilə fakültədə əsaslı islahatlar həyata keçirildi. Tədris planlarımız, kurs layihələrinin məzmunu, dərslik və fənn proqramlarımız RIBA-nın tövsiyələrinə əsasən dəyişdirildi və "Yol Xəritəsi" hazırlandı. Maddi-texniki baza gücləndirildi, yeni və müasir smart texnologiyalar, kompüter laboratoriyaları, 3D printerlər, lazer skanerlər və digər avadanlıqlarla təchiz olunmuş tədris binamız istifadəyə verildi. Tələbələrin yaradıcılığını inkişaf etdirən studiyalar və layihə dərslərinə xüsusi önəm verildi.

> **Azərbaycanın memarlıq təhsilinin əsası ötən əsrin əvvəllərində - 1920-ci ildə qoyulub. O dövrdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti adlanan ali məktəbin tərkibində fəaliyyət göstərən İnşaat fakültəsinin Memarlıq bölməsi bu istiqamətdə kadr hazırlığının ilkin ünvanı olub**

2024-cü ildə isə biz bu akkreditasiyanı növbəti dəfə uğurla yenilədik. RIBA-nın ekspert heyəti AzMİU-ya səfər edərək həm fakültədəki tədris keyfiyyətini, tələbə portfoliolarını, həm də layihə sərgilərini, müəllim-tələbə əlaqələrini və beynəlxalq əməkdaşlıqlarımızı yüksək qiymətləndirdi. Bu, o deməkdir ki, bizim memarlıq təhsilimiz artıq yalnız ölkə daxilində deyil, beynəlxalq aləmdə də tanınır və rəqabətə davamlıdır.

Bu akkreditasiya həm tələbələrimiz, həm də müəllim heyəti üçün çoxsaylı imkanlar açır. Məzunlarımız diplomlarına əlavə olunan akkreditasiya sənədi ilə Avropa İttifaqı ölkələrində və Böyük Britaniyada tanınan memarlar kimi fəaliyyət göstərə bilirlər. Bu isə onlara genişmiqyaslı karyera perspektivləri və sərhədsiz iş imkanları qazandırır. Müəllimlərimiz üçün isə bu, beynəlxalq şəbəkəyə qoşulmaq, müasir tədris metodlarını tətbiq etmək və qlobal memarlıq cərəyanlarını daha yaxından izləmək imkanı deməkdir.

Biz bu uğuru yalnız bir sertifikat kimi yox, həm də ölkəmizin memarlıq təhsilinin beynəlxalq səviyyədə tanınmasının bariz nümunəsi kimi qiymətləndiririk. Bu, Azərbaycanın çoxəsrlik memarlıq irsinin davam etdirilməsində, müasir və davamlı şəhərsalmanın formalaşmasında 100 illik memarlıq təhsilimizə ciddi töhfə verən bir addımdır.



Bu gün memarlıq təhsili yalnız nəzəri biliklərlə kifayətlənməməlidir. Tələbənin memar kimi formalaşması üçün o, mütləq şəkildə real layihə mühitində işləməli, multidissiplinar düşünməyi öyrənməli, fərqli məktəblərin yanaşmaları ilə tanış olmalı və praktik bacarıqlara yiyələnməlidir. Məhz bu məqsədlə Memarlıq fakültəsində tədrisin əsası layihə studiyaları üzərində qurulub. Layihə studiyalarında aparılan işlər tələbənin yaradıcı potensialını üzə çıxarır, düşüncəsini sərbəstləşdirir və ona fərqli funksional, estetik və texniki problemləri kompleks şəkildə həll etməyi öyrədir. Tələbə burada yalnız kağız üzərində deyil, real kontekstə uyğun şəkildə layihələndirməni öyrənir. Üstəlik, bu dərslərdə kollektiv müzakirələr, müəllim və tələbə arasında interaktiv dialoqlar tələbənin qərarvermə qabiliyyətini və öz layihəsini əsaslandırmaq bacarığını formalaşdırır.

Ustad dərsləri isə tələbələrimiz üçün əsl ilham mənbəyidir. Fakültəyə müxtəlif ölkələrdən - İtaliya, Fransa, Türkiyə, ABŞ, Almaniya, İspaniya və digər ölkələrdən tanınmış memarlar dəvət olunur. Onlar tələbələrlə birbaşa işləyir, real layihə təcrübələrini bölüşür, yanaşma fərqlərini izah edirlər. Bu, tələbələrin dünyagörüşünü genişləndirir və onlara beynəlxalq memarlıq kursuna inteqrasiya olunmaq imkanı yaradır. Beynəlxalq vörkşoplar isə bir növ simulyasiya mühitidir - tələbələr burada müxtəlif ölkələrin memarlıq məktəblərindən olan yaşıdları ilə birgə qruplarda işləyərək, fərqli mədəni və sosial kontekstlərdə layihə hazırlayırlar. Bu proses həm komandada işləmək, həm də öz ideyasını başqa mədəniyyətlərə təqdim etmək və əsaslandırmaq baxımından tələbə üçün misilsiz təcrübədir. Layihə studiyaları, ustad dərsləri və beynəlxalq vörkşoplar tələbənin yalnız bilik deyil, həm də bacarıq, düşüncə tərzi və yaradıcılıq baxımından tam formalaşmış memar kimi yetişməsinə xidmət edir. Bu yanaşma nəticəsində məzunlarımız təkcə yerli deyil, qlobal əmək bazarında da rəqabətədavamlı və tələb olunan mütəxəssislərə çevrilirlər.

Fakültənin son illərdə həyata keçirdiyi layihələr arasında xüsusilə diqqət çəkən məqamlardan biri də SABAH qrupları ilə işlənən "Ağdam nümunəsində Qarabağın davamlı inkişafı" adlı elmi-tədqiqat və konseptual layihədir. Hələ 2017-ci ildə, torpaqlarımız işğal altında olduğu bir dövrdə belə bir layihəni hazırlamağımız, bir çoxları üçün həm cəsarətli, həm də simvolik addım kimi görünürdü. Ancaq bizim üçün bu, sadəcə layihə deyildi - bu, milli yaddaşın, memarlıq kimliyimizin və ərazi bütövlüyümüzə olan inamın ifadəsi idi.

Bu təşəbbüsə bizi vadar edən əsas səbəb, ilk növbədə, bir memarlıq məktəbi kimi milli məsuliyyət hissimiz idi. Biz o dövrdə də inanırdıq ki, işğal olunmuş torpaqlarımız gec-tez azad ediləcəkdir və həmin məkanlar təkcə bərpa olunmalı deyil, həm də dayanıqlı, çağdaş şəhərsalma prinsipləri əsasında yenidən qurulmalıdır. Hazırladığımız bu layihə ilə biz gələcəyə bir baxış sərgilədik - tarixə və mədəni irsə hörmətlə yanaşaraq, Qarabağın gələcək inkişaf modelini elmi əsaslarla və qabaqcıl memarlıq yanaşmaları ilə təqdim etdik.

Digər mühüm səbəb isə tələbələrimizə və gənc memarlara bu ərazilərin yalnız keçmişdən ibarət olmadığını, eyni zamanda gələcəyin şəhərləri üçün ilham mənbəyi ola biləcəyini göstərmək idi. Bu layihə həm də təhsil prosesində vətənpərvərlik ruhunun, sosial və peşəkar məsuliyyətin aşılanması baxımından mühüm rol oynadı.

Bu gün artıq Qarabağ azaddır. Sevindirici haldır ki, həmin illərdə ideya səviyyəsində hazırladığımız layihələr indi real bərpa və quruculuq prosesinə inteqrasiya olunur. Təsadüfi deyil ki, Qarabağın azad olunduğu o günlər fakültə buraxılış işlərinin və magistr dissertasiyalarının mövzularını Qarabağın yenidən qurulmasına yönəltdik. Bu isə o deməkdir ki, biz yalnız müəllim kimi deyil, həm də vətəndaş-memar kimi zamanın çağırışını dərk edib, gələcəyə yönəlik düşünməyi bacarmışıq. Azad olunmuş ərazilərdə - Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma və şəhərsalma layihələrində Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsinin rolu açıq şəkildə hiss olunur. Əsas səbəb isə çox sadədir: Azərbaycanda fəaliyyət göstərən memarların təxminən 90 faizi məhz bizim fakültənin məzunlarıdır. Onlar həm dövlət, həm də özəl sektorda aparıcı mövqelərdə çalışırlar və bu gün Qarabağın və digər azad edilmiş bölgələrin yeni simasını məhz həmin məzunlarımız formalaşdırır. Onu da qeyd etməliyəm ki, bu layihələrdə Elbay Qasımzadə, Şəhla Qəhrəmanova, Əzimxan Həsənov, İlqar Balakişiyev və b. kimi yaradıcılığı ilə sözünü demiş müəllim heyətimizlə yanaşı məzunlarımız, doktorant və gənc müəllimlərimiz də uğurla çalışır.




**Zahidə MƏMMƏDOVA,**
*Azərbaycan Memarlıq və İnşaat Universitetinin Memarlıq fakültəsinin dekanı, professor, Azərbaycanın Əməkdar memarı*



# Xilaskar müəllim

## Qarabağ Universitetinin müəllimi Rəşad Sultanın həyat hekayəsi



**Hər dəfə Qarabağa səfərimdən əvvəl böyük həyəcan keçirirəm. Bu həyəcanın səbəbi isə uzun illər həsrətində olduğumuz vətən torpağına bizi qovuşduran qəhrəmanlar qarşısındakı məsuliyyət hissidir. Yəqin ki, onlar haqqında yüzlərlə oçerk, povest və roman yazılacaq. Mən isə bu dəfə sizə Vətən müharibəsində əcəllə çarpışan Rəşad Sultanın hekayəsini danışıram. Daha doğrusu, o özü danışır...**

"2020-ci ilin 27 sentyabrında Vətən müharibəsi başlayanda Azərbaycan Silahlı Qüvvələrində xidmətə çağırıldım. Ağdam rayonu ərazisində yerləşən hərbi hissədə Tapur tibb məntəqəsinin rəisi vəzifəsində, tibb xidməti baş leytenantı rütbəsi ilə xidmətə başladım".

Pənahəli xanın yadigarı sayılan Ağdam Rəşad müəllimin həyat hekayəsinin dəyişdiyi, döyüş fəaliyyətinin isə başlandığı nöqtə olub. Ona burada çox ağır və məsuliyyətli bir iş həvalə edilib...

"Müharibə boyu Ağdamda olmuşam və orada xidmət etmişəm. Baharlı, Sarıcalı, Mahrızlı, Zəngişalı, Qaradağlı kəndlərində gedən döyüşlərdə iştirak etmişəm. Tapur tibb məntəqəsinin rəisi olduğuma görə cəbhənin ən ön xəttində yaralılara ilkin tibbi yardım göstərmişəm. Yaralıların və şəhidlərimizin döyüş meydanından çıxarılmasında iştirak etmişəm".

Rəşad müəllimin müharibə xatirələrini dinləyəndə anladım ki, savaş sadəcə onun həyatını yox, həm də Vətən məhfumuna baxışını dəyişib.

"Müharibənin hər anı mənalı idi. Yadda qalan xatirələr çoxdur. Elə anlar olurdu ki, çətinlik yaşayanda düşünürdüm: Vətən nədir? Bu söz çox işlədilir. Mənim üçün vətən dedikdə dostlarınla birlikdə çətinliklərdən keçdiyin, bərkə-boşa düşdüyün yerdir. Bir ərazidə çətinlikləri birlikdə yaşayırsansa, o yer sənin üçün daha böyük məna kəsb edir, həyatının bir hissəsinə çevrilir. Ona görə də Qarabağ, Ağdam mənim üçün bir anda romantik bir məkana çevrildi".

Müsahibimin müharibədəki misilsiz xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilib. Rəşad Sultanın həm hərbi rütbəsi artırılıb, həm də medallarla təltif edilib.

"Hazırda ehtiyatda olan tibb xidməti kapitanıyam. Müharibədən sonra Ali Baş Komandanın Sərəncamı ilə "Ağdamın azad olunmasına görə", daha sonra isə "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edildim".

Xankəndi şəhərinin antiterror tədbirləri nəticəsində işğaldan azad olunması ilə Rəşad müəllimin uşaqlıqdan bəri gözlədiyi an da gəlib çatdı. İlk fürsətdə o, illərdir xəyalında canlandırdığı Xan yurduna gəldi. Bu tarixi məkanda gördüyü mənzərəyə valeh oldu.

"2023-cü ildə antiterror əməliyyatı ilə Xankəndi şəhəri və Qarabağın qalan hissəsi işğaldan azad edildikdən sonra Qarabağı görmək həvəsimiz daha da artdı. İlk fürsətdə Qarabağ futbol klubunun Xankəndidə keçirdiyi kubok oyununa baxmaq üçün azarkeş qrupu ilə gəldim. Futbol həvəskarıyam, amma əsas səbəb uşaqlıq arzum olan Xankəndini görmək idi. İlk dəfə görəndə heyran qaldım. Dağlar qoynunda yerləşən kiçik bir şəhərdir, amma havası və romantikası ilə insanı özünə bağlayır. Dostlarıma da deyirdim ki, insan burada yaşaya və işləyə bilər".

Xalq içində belə bir deyim var: "Deyilənlər gəldi başa". Rəşad müəllimin Xankəndidə qurduğu xəyal da ildırım sürətilə reallığa çevrildi. Və bu dəfə başa gələn bəla yox, misilsiz qürur və xoşbəxtliyi özündə ehtiva edən xeyir idi...

"İlk dəfə eşidəndə ki, Xankəndi şəhərində Qarabağ Universiteti yaradılır, düşündüm ki, bəlkə bir gün bu universitetdə tibb fakültəsi də olar. O vaxt bunu sadəcə xəyal hesab edirdim. Az müddət sonra bu xəyal gerçək oldu və mən Qarabağ Universitetinin Tibb və sağlamlıq elmləri fakültəsinin müəllimi oldum.

Beləliklə, bu gün Rəşad Sultan həm Qarabağ Universitetinin Tibb və sağlamlıq elmləri fakültəsində müəllim, həm də Qarabağ Universiteti Klinikasında həkim kimi fəaliyyət göstərir. Onun Vətən müharibəsi ilə dəyişən möhtəşəm həyat hekayəsi bu gün aşiq olduğu şəhərdə - Xankəndidə davam edir. İndi o Azərbaycan xalqı üçün yeni rəşadlar yetişdirməklə məşğuldur. Ən əsası isə Rəşad müəllim qürurlu olduğu qədər də xoşbəxtdir...

"Tələbələrin qarşısında, auditoriyaya daxil olduğum hər an bu hissləri yaşayıram. Dərslər zamanı tibbi yardım və həkim etikası mövzularına toxunanda, burada təhsil alan tələbələr qarşısında həm çıxış etmək, onlara nəsə öyrətmək, həm də yaşadıqlarımı, təəssüratlarımı paylaşmaq baxımından özümü şanslı və xoşbəxt hiss edirəm".

Göründüyü kimi, Rəşad müəllimlərin timsalında Azərbaycan təhsili də böyük sürətlə Qarabağa qayıdır.

**Çingiz SƏFƏRLİ**
*Bakı-Xankəndi-Bakı*

# "Qarabağ Universitetində fəaliyyət göstərmək arzularımdan biri idi"

## "Maarifçi" tələbə-məzun təcrübə proqramının iştirakçısı Qarabağ Universitetində işə başlayıb




"Maarifçi" tələbə-məzun təcrübə proqramının 49 iştirakçısından 24 nəfəri təhsil sahəsində müxtəlif köməkçi vəzifələrdə işə başlayıb. Onlardan biri də bu günlərdə Qarabağa yollanıb. Məhz işə başlamaq üçün yollandığı o torpaqlar onun üçün, sadəcə ilk rəsmi iş yeri yox, doğulmasa da, heç görməsə də, orada böyüməsə də, özünü qürurla "qarabağlı" deyə təqdim edə biləcəyi doğma torpaqlardır.

### Təhsil aldı, təcrübə topladı

Orada doğulmayıb, çünki dünyaya gələndə ev-eşiyi işğal altında idi. Aytac Həziyeva 2001-ci ildə Bakı şəhərində anadan olub. 215 nömrəli tam orta məktəbin məzunudur. 2018-ci ildə Azərbaycan Dillər Universitetinə qəbul olunub. "Xarici dil müəllimliyi" ixtisası üzrə təhsil alıb. Magistratura səviyyəsində Bakı Ali Neft Məktəbində MBA (Biznesin təşkili və idarə olunması sahəsində) üzrə ixtisaslaşıb. Bu müddətdə fasilələrlə də olsa, menecment sahəsində fəaliyyət göstərib, təcrübə toplayıb.

### "Maarifçi" oldu

İnsanın öyrəndikləri itmir. Onun da məşğul olduğu hər iş təcrübəyə çevrilərək uğurlarına uğur qatıb. Ən böyük uğur isə "Maarifçi" tələbə-məzun təcrübə proqramına seçilməyi olub: "Elm və Təhsil Nazirliyində işlərin hansı şəkildə irəlilədiyini bilmək istəyirdim. Bu marağım sayəsində 2025-ci ildə "Maarifçi" tələbə-məzun təcrübə proqramına baş vurdum".

Güclü marağı onu Elm və Təhsil Nazirliyində "Maarifçi" tələbə-məzun təcrübə proqramına müraciət etməyə sövq edib. Proqrama seçilməklə nazirliyin Aparatında və struktur bölmələrindən birində təcrübə keçmək fürsəti əldə edib. Bu vaxta qədər qazandığı bilik və bacarıqlar sayəsində 49 "Maarifçi"dən biri olub.

Amma "Maarifçi" olmaq uğurun yarısıdır, bu təcrübəni perspektivli işlə tamamlamaq hər təcrübəçiyə qismət olmur. Azsaylı təcrübəçilərdən olmaq üçün Aytac 4 aylıq gərgin iş təcrübəsi keçib və həmin operativ, bu operativlikdən doğan stresli, gərgin iş mühitində uğurla baş çıxarıb: "Təcrübə dövrünün ilk iki ayında Təhsil Tələbə Krediti Fondunda vətəndaş müraciətlərinin qəbulu üzrə fəaliyyət göstərmək imkanı əldə etdim. Çox maraqlı keçən bu iki ay vətəndaşlarla işləməkdə böyük təcrübə qazandırdı. Daha sonra rotasiya ilə Elm və Təhsil Nazirliyində "Satınalma və qrantlar" sektorunda təcrübəmə davam etdim.

Zənnimcə, təhsillə yaxından maraqlandığım, ixtisasımın da təhsillə bağlı olması mənə proqramda üstünlük qazandırdı. 4 ayda əldə etdiyim bacarıqlarımı, qazandığım təcrübələri göstərə bildim. Həm bacarıqlarımı göstərdim, həm də güvən yarada bildim".

### Qarabağa yol göründü

Uğurlu 4 ay onun özünə güvənini artırıb. Elə bu inamla öz gələcəyinə təhsillə - bir təhsil müəssisəsi ilə yön verib: "Təcrübə müddəti bitdikdən sonra gələcək iş yerimin hara olacağına qərar verdim. Fəaliyyətə başladığı ilk günlərdən bəri maraqla izlədiyim, təhsilə fərqli yön verə biləcəyinə inandığım Qarabağ Universitetində çalışmaq arzularımdan biri idi. "Maarifçi" tələbə-məzun təcrübə proqramında iştirak etməyin, burada qazandığım təcrübənin verdiyi özgüvənlə ali təhsil müəssisəsinə müraciət etdim. Yanılmamışdım, Elm və Təhsil Nazirliyində olan fəaliyyətim də nəzərə alınaraq dəyərləndirildim".

Beləliklə o, "Maarifçi" proqramının da qaliblərindən olub və bir qalib qüruru ilə Qarabağ Universitetinin İqtisadiyyat fakültəsində tədris işləri üzrə mütəxəssis vəzifəsində işə başlayıb.

### İndi Qarabağa məskən salır

Aytac Həziyeva artıq Qarabağdadır. Qarabağ onun, sadəcə iş yerinin olduğu torpaqlar deyil, həm də yurd yeridir: "Qarabağ mənə çox doğmadır. Bu hiss həm də özüm də Füzuli rayonundan olduğum üçündür. Qarabağın da məni isti qarşıladığını düşünürəm".

Bu düşüncə ona hələ ziyarət məqsədli səfərində hakim kəsilib: "Dekabr ayında İqtisadiyyat fakültəsinin dekanı Kamran Məlikovla müsahibə tipli görüşümüz oldu. Sonra mənə fəaliyyət göstərmək istədiyim universiteti ziyarət edə biləcəyim deyildi. Təbii ki, sevə-sevə razılaşdım. Qarabağ Universitetini və doğma yurdum Qarabağı ziyarət imkanından imtina etmək olardımı?".

Aytac Qarabağ Universitetini elə Qarabağı sevdiyi qədər sevəcəyinə əmin idi: "Bu ziyarətdən öncə də rahatlıqla Qarabağda işə başlaya biləcəyimi bildirdim. Elə də oldu. Bu il yanvarın əvvəlində iş üçün dəvət olundum. Yanvarın 10-dan Qarabağa yerləşdim".

O artıq Qarabağda məskən salır: "Əslində uzunmüddətli plan qururam, çünki hazırda İqtisadiyyat fakültəsi üçün ayrıca bina inşa edilib, sıfırdan qurulan bir sistem var. Belə bir təhsil müəssisəsində yenilik etmək imkanı çoxdur".

### Daha böyük uğurlara imza atmaq üçün

Aytac Həziyeva işinə canla-başla sarılıb: "Qarabağ Universitetinin bir çox universitetdən fərqinin, sadəcə coğrafi məkan fərqi deyil, düşüncə tərzi, ab-havası ilə fərqləndiyini, tələbələrə yanaşmada nə qədər müxtəliflik olduğunu gördüm. Qarabağ Universiteti ilə birlikdə böyüyəcək, daha çox yeniliklərə imza atacağam".

# Uğur arxasınca uğur

## Əvvəlcə "Maarifçi", sonra dövlət qulluqçusu oldu




Bir nazirlikdə işləmək, təhsil idarəçisi olmaq kimin arzusu deyil ki? Şükufə də arzulayıb. O qədər arzulayıb ki, Elm və Təhsil Nazirliyinin elan etdiyi "Maarifçi" tələbə-məzun təcrübə proqramına düz 3 dəfə müraciət edib. İlk iki uğursuzluğu onu yolundan döndərməyib, cəhdlərini davam etdirib. 2 uğursuz cəhddən sonra "Atalar üçdən deyib", - ümidi ilə növbəti dəfə proqrama müraiciət edib. Bu da son. O, artıq Elm və Təhsil Nazirliyinin əməkdaşıdır. Şükufə Hüseynzadə hazırda Quba-Xaçmaz Regional Təhsil İdarəsində məsləhətçidir.

### "Bütün bacarıqlarımı nümayiş etdirəcək bu sınağı qazanacaqdım"

O, Quba rayonundakı Mahmud Mahmudov adına Afurca kənd tam orta məktəbini bitirib. Bakalavr təhsilini Azərbaycan Dövlət Pedaqoji Universitetində "Riyaziyyat müəllimliyi" ixtisası üzrə aldıqdan sonra elə həmin universitetdə səviyyəsini artırmağa qərar verib. Magistratura səviyyəsində "Təhsildə qiymətləndirmə və monitorinq" üzrə ixtisaslaşıb. "Maarifçi" tələbə-məzun təcrübə proqramına ixtisası ilə bağlı bilik və bacarıqlarını təkmilləşdirmək məqsədilə müraciət edib: "Proqrama qəbul elan olunduğunu sosial şəbəkədə gördüm. Məlumat diqqətimi çəkdiyindən ətraflı məlumat toplamağa başladım".

"Maarifçi" ilə bağlı qarşısına çıxan məlumatlar, proqramın şərtləri Şükufənin diqqətini çəkib: "Bu proqram bir tələbə üçün çox cəlbedicidir. Təcrübə tələbə üçün nazirlikdə işləmək, əməkdaşlarla ünsiyyət qurmaq, iş mexanizmini öyrənmək imkanı əldə etmək, sözün əsl mənasında, bir şansdır. Bu şansı əlimdən verə bilməzdim. Odur ki, bütün bacarıqlarımı nümayiş etdirəcək bu sınağı qazanacaqdım".

3 mərhələdə olan qəbul prosesinə qatılan Şükufə sənədlərini təqdim etdikdən sonra test imtahanına hazırlaşıb. Biliyinə güvəndiyindən bu mərhələdə uğur qazanacağına şübhəsi yox idi. Amma müsahibə mərhələləri hər kəs kimi onu da həyəcanlandırıb: "İlk "Maarifçi"lərdən olmaq üçün çox çalışdım, amma müsahibə mərhələsində kəsildim. İkinci dəfə proqrama qəbul elan olunanda yenə qatıldım, bu dəfə də mübarizəmi yarımçıq dayandırmaq məcburiyyətində qaldım. Nəhayət, III dəfə "Maarifçi" proqramı elan olundu və mən onun iştirakçılarından birinə çevrildim".

### İki fərqli strukturda təcrübə

3 cəhddən sonra "Maarifçi" olmağın sevinci çox böyük olsa da, məsuliyyəti də bir o qədər ağır olub: "Düşünürəm ki, "Maarifçi"yə seçilərkən mənə üstünlüyü ixtisas sahəm qazandırdı. III dəfə müsabiqəyə qatılanda artıq pedaqoji təhsilimi uğurla tamamlamış bir məzun olmaq, "Təhsildə qiymətləndirmə və monitorinq" üzrə magistratura təhsilimi tamamlamaq üzrəydim, özümü daha yaxşı ifadə edə bilirdim".

Şükufənin "Maarifçi"də fəaliyyəti məhsuldar keçib: "Təcrübəyə Təhsil İnstitutunda Milli və beynəlxalq qiymətləndirmə tədqiqatları şöbəsində başladım. Burada beynəlxalq qiymətləndirmələrə hazırlıq və onların təşkili, həmçinin keçirilən qiymətləndirmələr zamanı əldə olunan dataların təhlili, beynəlxalq təcrübənin araşdırılması ilə bağlı idi".

Proqramın şərtlərinə görə, 4 aylıq təcrübə dövründə yerdəyişmə olur. İlk iki ayı bir yerdə, növbəti iki ayı isə başqa yerdə təcrübə keçən proqram iştirakçıları iki fərqli strukturda özünü göstərmək imkanı qazanırlar: "Elm və Təhsil Nazirliyində Məktəbəqədər və ümumi təhsil şöbəsində keçdiyim təcrübə magistratura təhsili aldığım ixtisasla bağlı idi. Məhz bu təcrübə ilə qiymətləndirmə sahəsində əldə etdiyim bilikləri tətbiq edərək karyera yolumda inkişaf əldə etdim".

Şükufə deyir ki, hər iki təcrübə çox maraqlı olub: "Eyni sahə olsalar da, aspektləri fərqli idi".

### "Maarifçi" mənə dostluqlar, real iş şəraitində təcrübə, birgə əməkdaşlıq qazandırdı"

Şükufə Hüseynzadə üçün "Maarifçi" tələbə-məzun təcrübə proqramında iştirak çox böyük əhəmiyyət kəsb edir: "Proqram dövründə bir sıra layihələrdə iştirak etdim, təhsil sahəsində önəmli rol oynayan şəxslərlə tanış oldum, onların karyerada necə uğur qazandıqlarını gördüm. Bununla yanaşı, "Maarifçi" mənə dostluqlar, real iş şəraitində təcrübə, birgə əməkdaşlıq qazandırdı".

### Bir gündə 3 böyük sevinc

"Məzun günü" Şükufənin ən uğurlu günü, təqvimin ən yaddaqalan tarixi olub: "Magistraturadan "Məzun günü"müz idi. O günə magistr dissertasiya müdafiəsi də vardı. Müdafiəm uğurlu olmuşdu. Qiymətlər elə o gün elan olundu. Müdafiədən çıxıb "Məzun günü"nə gedəndə yolda zəng gəldi və "Maarifçi" proqramının nəticələrinə uyğun olaraq işə qəbul olunmağım barədə məlumat verdilər. Çox xoş gün idi, çox sevinmişdim".

Sevinci sonra da davam edib: "Təhsil sahəsində fəaliyyət göstərmək hələ tələbəlikdən məqsədim idi. Bu səbəbdən dövlət qulluğuna qəbul üçün müsabiqənin test mərhələsində iştirak edərək orada da yüksək nəticə göstərmişdim. "Maarifçi" tələbə-məzun təcrübə proqramı yekunlaşandan sonra həmin müsabiqənin də müsahibə mərhələsi oldu və mən orada da uğur qazanaraq dövlət qulluqçusu kimi fəaliyyətə başladım".

Şükufə Hüseynzadə bu müsabiqədəki uğurunu da "Maarifçi" ilə əlaqələndirir: "Düşünürəm ki, "Maarifçi"də iştirak dövlət qulluğuna qəbul üçün müsahibədə verilən suallara daha rahat cavab verməyimə kömək oldu. Qanunvericiliyin tətbiqini görmək onu ifadə etməyi rahatlaşdırdı. Praktik cavablarla bu mərhələdə üstünlük əldə etdim".

**Ruhiyyə DAŞSALAHLI**

# Xaricdə çalışan alimlərimiz

## "TƏDQİQATLARIMIZ AZƏRBAYCANDA APARILSA, UZUNMÜDDƏTLİ FAYDALAR ƏLDƏ EDİLƏR"

ABŞ-nin Kolorado Universitetinin tədqiqatçısı



Son illərdə dünyanın müxtəlif nüfuzlu universitetlərində, elmi-tədqiqat mərkəzlərində çalışan və mühüm elmi nəticələrə imza atan azərbaycanlı alimlərin sorağını eşitmək xoş ənənəyə çevrilib. Onların əldə etdiyi uğurlar ölkəmizin gələcək elmi potensialının gücləndirilməsində əhəmiyyətli faktordur. "Azərbaycan müəllimi"nin budəfəki müsahibi ötən həftə dünyanın nüfuzlu elmi nəşrlərindən olan "Nature Communications " jurnalında baş müəllif kimi məqaləsi dərc olunan Elbəy Əliyevdir. Qeyd edək ki, "Nature" jurnal ailəsində dərc olunan məqalələr yalnız yüksək səviyyəli və beynəlxalq əhəmiyyət daşıyan araşdırmalara nəsib olur.

Elbəy Əliyev Bakıda anadan olub. 2009-cu ildə Bakı Dövlət Universitetini bitirib, hərbi xidmətdən sonra magistr təhsilini də burada davam etdirib. 2008-2017-ci illərdə "IDRAK Technology Transferi şirkətində baş proqramçı kimi çalışıb. 2017-2025-ci illərdə Qətərin Doha şəhərində yerləşən Sidra Medicine tibb və tədqiqat mərkəzində araşdırmaçı kimi fəaliyyət göstərib. 2025-ci ilin iyul ayından ABŞ-nin Kolorado Universitetinin Biotibbi İnformatika Departamentində baş data elmi mütəxəssisi kimi çalışır. Elbəy Əliyevin bu nailiyyəti Azərbaycan elmi üçün qürurverici nümunə kimi qiymətləndirilir. "Azərbaycan müəllimi"nə müsahibəsində azərbaycanlı alim tədqiqatlarının nəticələri və əhəmiyyəti barədə danışır.

- *Tədqiqatlarınızın nəticələrinin "Nature Communications" jurnalında dərc olunması münasibətilə təbrik edirik. Məqalə və tədqiqat mövzunuz barədə nə deyərdiniz?*

- Araşdırma insan DNT-sində baş verən irimiqyaslı struktur dəyişikliklərinin tədqiqinə həsr olunub. Adətən genetik testlər xırda nukleotid dəyişikliklərinə fokuslanır. Bu tədqiqat isə DNT-nin böyük hissələrinin silinməsi, çoxalması və ya yerinin dəyişməsi kimi dəyişikliklərin genlərin fəaliyyəti və insan sağlamlığına təsirini araşdırır. Tədqiqat çərçivəsində Qətərdə yaşayan 6141 nəfərin tam genom məlumatı analiz edilib və nəticələr real tibbi göstəricilər, qan analizləri və sağlamlıq qeydləri ilə müqayisə olunub.

Araşdırma nəticələri göstərib ki, bu cür genetik dəyişikliklər: sidik turşusu səviyyəsi (podaqra riski), bilirubin və qaraciyər göstəriciləri, dəmir və böyrək funksiyaları, bədən çəkisi və maddələr mübadiləsi kimi gündəlik tibbdə geniş istifadə olunan göstəricilərlə birbaşa əlaqəlidir.

Araşdırmanın ən diqqətçəkən nəticələrindən biri isə odur ki, təxminən hər 30 nəfərdən biri erkən mərhələdə aşkarlandığı təqdirdə ciddi xəstəliklərin qarşısını almağa imkan verən genetik risk daşıyır.

Bu tədqiqat müasir tibbin mühüm problemlərindən birinə - genetik məlumat bazalarının əsasən Avropa mənşəli əhali üzərində qurulmasına ciddi töhfə verir. Yeni nəticələr Yaxın Şərq və az tədqiq olunmuş regionlar üçün daha dəqiq tibbi diaqnostikanın mümkünlüyünü göstərir. Tədqiqat standart testlərin gözdən qaçırdığı genetik dəyişiklikləri üzə çıxarır, az tədqiq olunmuş əhali qrupları üçün diaqnostikanı dəqiqləşdirir, xəstəliklərin müalicəsindən daha çox profilaktikaya yönəlmiş yanaşmanı gücləndirir.

## "Əsas məqsədim elmi nəticələri real kliniki mühitdə istifadəsini mümkün etməkdir"



- *Araşdırmalarınızın Azərbaycanda da aparılması perspektivləri barədə nə deyərdiniz?*

- Bu tip tədqiqatlar Azərbaycanda da aparılarsa, əhali üçün daha dəqiq tibbi diaqnostika, ürək-damar xəstəlikləri və diabetin erkən aşkarlanması, fərdiləşdirilmiş tibbin inkişafı və səhiyyə planlamasında yerli məlumatlardan istifadə kimi uzunmüddətli faydalar əldə edilə bilər.

- *Xaricdə çalışan azərbaycanlı alimlərimizin elmi uğurları bizim üçün qürur mənbəyidir. Necə bilirsiniz, Azərbaycan elmini xaricdə kifayət qədər təmsil edə və tanıda bilirikmi? Nələrə diqqət yetirməliyik?*

- Fikrimcə, Azərbaycan alimləri xaricdə çox güclü işlər görür və ölkəmizi layiqincə təmsil edir. Amma bu təmsilçilik hələ tam sistemli və davamlı şəkildə görünürlük qazana bilmir. Yəni fərdi uğurlar var, amma onları "ölkə elminin brendi" kimi ardıcıl tanıtmaq üçün daha çox koordinasiya lazımdır. Düşünürəm, diqqət etməli olduğumuz əsas məqamlar bunlardır:

**Görünürlük və kommunikasiya:** elmi nəticələri təkcə məqalə ilə yox, sadə dildə izah edən yazılar, çıxışlar, media paylaşımı, seminarlar vasitəsilə də yaymaq.

**Şəbəkələşmə (networking):** xaricdəki azərbaycanlı alimlər arasında daha aktiv əlaqə, ortaq layihələr, bir-birinə referans və mentorluq mədəniyyəti.

**Beynəlxalq əməkdaşlıq və konsorsiumlar:** böyük layihələrdə tərəfdaş olmaq (konsorsiumlarda iştirak) həm reputasiya, həm də resurs baxımından çox şey dəyişir.

**Keyfiyyət və təkrarolunanlıq:** açıq data, açıq kod, yaxşı sənədləşmə, etibarlı metodologiya - elmi nüfuzun əsas sütunlarıdır.

**Gənclərin dəstəklənməsi:** təqaüd, qrant, qısa müddətli təcrübə proqramları, konfrans dəstəyi - bunlar zəncirin davamlılığını təmin edir.

- *Artıq neçə illərdir ki, xaricdə təhsil dövlət proqramları həyata keçirilir. Və məzunlarımız arasında elmə, tədqiqatlara marağın artmasını müşahidə etmək olur. Gənclərə nə kimi tövsiyələriniz olardı?*

- İlk növbədə, baza bacarıqlarının möhkəmləndirilməsini tövsiyə edərdim. Bunlara aiddir:

İngilis dili, statistika/riyaziyyat düşüncəsi, proqramlaşdırma, elmi yazı və təqdimat bacarığı.

*Səbir və davamlılıq:* elmdə nəticə bəzən gec gəlir, amma ardıcıl iş görən mütləq fərqlənir. Etikaya və keyfiyyətə diqqət: düzgün istinad, düzgün data idarəçiliyi, təkrarolunan nəticə uzunmüddətli karyeranın əsas şərtidir.

*Mentor tapın və icmaya qoşulun:* tək inkişaf çətin olur. Laboratoriya, tədqiqat qrupu, konfrans və onlayn icmalar gəncə çox sürət verir.

*Ən vacibi:* gənclər elmdə karyera seçəndə bunu "yalnız diplom" kimi yox, problem həll etmə və cəmiyyətə fayda yaratmaq yolu kimi görsünlər. Bu yanaşma onları həm motivasiyalı, həm də rəqabətədavamlı edir.

- *Azərbaycan elminin rəqabətqabiliyyətliliyini necə gücləndirə bilərik?*

- Azərbaycan elminin rəqabətqabiliyyətliliyini gücləndirmək üçün fikrimcə, ən vacib məsələlərdən biri nəticələrə əsasən hesablanan, şəffaf və ölçülə bilən qiymətləndirməyə söykənən sistem qurmaqdır. Qrant maliyyələşməsi mərhələli olmalı, gənc alimlər üçün startap imkanları və stabil karyera yolu yaradılmalıdır. Universitet-institut-sənaye inteqrasiyası güclənməli, ortaq laboratoriya və infrastruktur mərkəzləri hesabına həm resurslar səmərəli istifadə olunmalı, həm də tətbiqi nəticələr artmalıdır. Paralel olaraq beynəlxalq konsorsiumlarda aktiv iştirak, diaspora alimləri ilə davamlı əməkdaşlıq və elmi nəticələrin düzgün kommunikasiya olunması Azərbaycanın elmini daha görünən və rəqabətədavamlı edəcək.

- *Hazırkı tədqiqat hədəfləriniz və elmi planlarınız barədə nə deyərdiniz?*

- Hazırda əsas tədqiqat hədəfim genomik struktur variantlar və qısa tandem təkrarlar kimi insan genomunda baş verən mürəkkəb dəyişiklikləri daha dəqiq tapmaq və analiz etmək üçün proqram həlləri qurmaq və onları böyük məlumat dəstlərində yoxlayıb etibarlı hala gətirməkdir. Bu mutasiya tipləri bir çox nadir xəstəliklərin səbəbini izah edə bilir, eyni zamanda geniş populyasiyalarda xəstəliklərin və bioloji mexanizmlərin anlaşılmasına kömək edir. Ümumilikdə əsas məqsədim elmi nəticələrin real kliniki mühitdə istifadəsini mümkün etmək və xəstələr üçün daha düzgün qərarların verilməsinə dəstək olmaqdır.

**Oruc MUSTAFAYEV**

# "Azərbaycan dilini öyrənmək mənim üçün böyük şansdır"



Çinli tələbə

Çin Xalq Respublikasının Pekin Xarici Dillər Universitetinin tələbəsi Zhu Tianxu həm də Bakı Dövlət Universitetinin (BDU) Filologiya fakültəsində "Azərbaycan dili" ixtisası üzrə əlavə təhsil alır. Zhu Tianxu dilimizdə çox yaxşı danışması ilə yanaşı, Azərbaycan ədəbiyyatını da çox sevir. Azərbaycan dilini yaxşı səviyyədə mənimsəyərək gələcəkdə Azərbaycan-Çin münasibətlərinin inkişafına töhfə vermək istəyir. "Azərbaycan müəllimi" AZƏRTAC-a istinadən bu tələbə ilə müsahibəni təqdim edir.

## Gələcəkdə BDU-da fəaliyyət göstərən Konfutsi İnstitutunda Çin dili müəllimi kimi fəaliyyət göstərməyi çox istərdim

- Adım Zhu Tianxudur, amma siz mənə Hüseyn də deyə bilərsiniz. Beş aydır ki, BDU və Pekin Xarici Dillər Universiteti arasında imzalanmış anlaşma memorandumu çərçivəsində BDU-nun 2021-2030-cu illəri əhatə edən "Strateji İnkişaf Planı"nın beynəlxalq mobillik proqramları üzrə əlavə təhsil alıram. Amma bundan əvvəl Çində də "Azərbaycan dili" ixtisasını seçmişdim və Azərbaycan dilinə, mədəniyyətinə marağım var idi. Çünki Azərbaycanla Çin arasında bir çox məsələlərdə ortaq nöqtələr var. Bunun üçün dilinizi daha yüksək səviyyədə mənimsəmək, Azərbaycanı daha yaxından tanımaq istədim və Dövlət Proqramına müraciət etdim.

- *Qeyd etdiniz ki, biz sizə Hüseyn də deyə bilərik. Niyə məhz Hüseyn? Yəqin ki, bunun bir hekayəsi var.*

- Bəli, elədir. Biz bura gələndən sonra insanlar adımı tələffüz etməkdə çətinlik çəkirdilər. Elə həmin dövrdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) prezidenti İsa Həbibbəyli Azərbaycan dilini öyrənən çinli tələbələrlə görüş keçirirdi. Görüşdə İsa Həbibbəyli həm bizim Azərbaycan dilini öyrənməyimizi və bu məqsədlə ölkənizə gəlməyimizi çox xoş qarşıladı, həm də hər birimizə bir azərbaycanlı adı verdi. Mənə də dedi: "Bundan sonra sənin də adın Hüseyn olsun".

- *Çox maraqlıdır. Təhsil almaq üçün məhz BDU-nu seçmisən. Buradakı tədris prosesi necə gedir?*

- BDU mənim inkişafıma çox müsbət təsir göstərib. Elə həm Cənubi Qafqazın, həm də ölkənin ən nüfuzlu universiteti olduğu üçün BDU-da təhsil almaq şansı əldə etmək mənim üçün çox xoşdur. Burada həm dərsliklər, həm də müəllimlərim çox yaxşıdır. Müəllimlərimin hamısı bizə böyük səbirlə dərs keçirlər. Azərbaycan dilini öyrənən əcnəbi tələbə kimi universitetinizdə dilinizi öyrənmək üçün zəngin resurslar var. Dil kitabları, audiovizual materiallar və digər vəsaitlər Azərbaycan dilini öyrənməyim üçün mənə çox kömək oldu.

- *Azərbaycan dilini öyrənməyə bu qədər həvəslisən. Marağına səbəb nədir?*

- Azərbaycan dili çox gözəl və mənalı dildir. Artıq iki ildir ki, bu dili öyrənirəm. Azərbaycan dilini mənimsəməyimdə Çindəki müəllimim - Asiya fakültəsinin Azərbaycan dili kafedrasının müdiri Aqşin Əliyevin böyük rolu olub. Bununla belə, düşünürəm ki, dili öz ölkəsində öyrənmək xüsusilə dinləmə bacarıqlarının inkişafına ciddi təsir göstərir. Son illərdə Azərbaycan - Çin əlaqələrinin sürətlə inkişaf etməsi də bu seçimi etməyimə mühüm təsir göstərdi. İstəyirəm ki, Azərbaycan dilini indi yaxşı səviyyədə mənimsəyim və gələcəkdə Azərbaycan - Çin münasibətlərinin inkişafına töhfə verim.

- *Azərbaycan dilini öyrənməyiniz sizə yerli müəlliflərimizi oxumaq imkanı yaradır. Ən çox sevdiyiniz yazıçı və ya şair kimdir?*

- Düzünü desəm, bura gəlməzdən əvvəl Azərbaycan ədəbiyyatını az oxumuşdum. Amma bu semestr ərzində ədəbiyyatınızdan çoxlu nümunələrlə tanış olmuşam. Çünki bu semestr Azərbaycan ədəbiyyatından seçmələr və Azərbaycan ədəbiyyatı tarixi fənləri çərçivəsində Xətai, Füzuli, Nizami, Nəsimi kimi möhtəşəm şairlərin əsərlərini oxumuşuq. Həmin dərslərdə Azərbaycanın milli dəyərlərini daha yaxşı öyrəndim. Ədəbiyyatımız, milli dəyərlərimiz və mövzularımız arasında oxşarlıqlar var. Bizim ədəbi nümunələrimizdə də milli-mənəvi dəyərlər ön plandadır. Bu oxşarlıq məni çox sevindirir.

- *Azərbaycan dilini öyrənərkən hansı çətinliklərlə qarşılaşdın? Çin dili ilə Azərbaycan dili arasındakı fərqlər nələrdir?*

- Çin və Azərbaycan dilləri tamamilə fərqli dillərdir. Azərbaycan dilini öyrənmək də asan deyil. İlk öyrəndiyim qaydalardan biri ahəng qanunu idi, bu da sizin dilinizin əsas qaydasıdır. Ən asanı yəqin ki, yazmaqdır, amma dinləmək çox çətindir. Çünki Azərbaycan dilində dialekt və şivələrdən istifadə edirsiniz və tələffüzdə ciddi fərqlər yaranır. Sizdə bir sözün müxtəlif bölgələrə görə adlanması və səslənməsi var. Azərbaycanda yaşadığım bu beş ay ərzində müxtəlif dialekt və şivələrlə tanış oldum. Bu isə mənim üçün ən maraqlı təcrübələrdən biri oldu.

- *BDU-da tələbə həyatı necə keçir?*

- Azərbaycana gəldiyimiz ilk gündən, yəni ötən il sentyabrın 18-dən etibarən çox səmimi və mehriban qarşılandıq. Daha sonra buradakı azərbaycanlı tələbələrlə dostlaşdım. Hətta burada Çin dilini bilən və ya öyrənməyə çalışan tələbələrlə də tanış oldum. Bir-birimizə qarşılıqlı şəkildə kömək edirik. Yəni onlar mənə Azərbaycan dilini, mən isə Çin dilini öyrədirəm. Burada tələbə həyatı çox hərəkətlidir və universitet bizə doğma münasibət göstərir. Buna görə də mən özümü artıq BDU ailəsinin üzvü kimi hiss edirəm.

- *Azərbaycan dilindən gələcəkdə necə istifadə etməyi düşünürsən?*

- Gələcəkdə BDU-da fəaliyyət göstərən Konfutsi İnstitutunda Çin dili müəllimi kimi fəaliyyət göstərməyi çox istərdim. Karyeram baxımından Azərbaycan dilini öyrənmək mənim üçün böyük şansdır və bu dili peşəkar səviyyədə bilməyimin gələcək həyatımda mühüm rol oynayacağına inanıram.



Həkim məsləhəti

# DÜZGÜN QİDALANMA:

## NƏLƏRƏ DİQQƏT EDƏK

Uşaqların sağlam böyüməsi və hərtərəfli inkişafı cəmiyyətin gələcəyi üçün mühüm əhəmiyyət daşıyır. Və onu da qeyd edək ki, sağlam nəsil formalaşdırmaq yalnız tibbi xidmətlə deyil, eyni zamanda düzgün həyat tərzi və balanslı qidalanma ilə birbaşa bağlıdır. Məhz uşaqlıq dövrü orqanizmin sürətlə formalaşdığı, sümük-əzələ sisteminin, beyin fəaliyyətinin və immun sisteminin intensiv inkişaf etdiyi ən həssas mərhələlərdən biridir. Bu səbəbdən həmin dövrdə qəbul edilən qidaların tərkibi, keyfiyyəti və qida rejimi xüsusi önəm kəsb edir. Etiraf edək ki, müasir dövrdə fastfud yeməklərinin, qazlı və şəkərli içkilərin, hazır və emal olunmuş qidaların geniş yayılması uşaqların sağlam qidalanma vərdişlərini zəiflədir. Həkimlər də xəbərdarlıq edirlər ki, bu cür qidalar piylənmə, şəkərli diabet, vitamin çatışmazlığı və həzm problemləri kimi bir çox sağlamlıq risklərinə yol aça bilər. Bu baxımdan valideynlərin, təhsil müəssisələrinin və bütövlükdə cəmiyyətin əsas vəzifələrindən biri uşaqlarda erkən yaşlardan sağlam qidalanma mədəniyyətinin formalaşdırmasıdır. Elə Respublika Pediatriya Mərkəzinin Uşaq Bərpa Mərkəzinin pediatrı Günay Məmmədova ilə müsahibəmizdə də uşaq və yeniyetmələrin sağlam qidalanması ilə bağlı məsələlərə toxunmağa çalışdıq.

Pediatr Günay MƏMMƏDOVA:



### "Düzgün qidalanma sağlam böyümə, güclü immunitet, fiziki inkişaf və sağlam gələcək deməkdir"

**Düzgün qidalanma sadəcə uşağı doyurmaq deyil...**

– *Günay həkim, uşaq və yeniyetmələr üçün düzgün qidalanma dedikdə nə başa düşülür?*

– Öncə onu xüsusi qeyd etmək istəyirəm ki, uşaqların sağlam böyüməsi və sağlam fərd kimi formalaşması birbaşa onların düzgün qidalanması ilə bağlıdır.

Düzgün və balanslı qidalanma uşağın yaşına, cinsinə və fiziki aktivliyinə uyğun olaraq orqanizmin ehtiyac duyduğu bütün qida maddələrinin – zülal, yağ, karbohidrat, vitamin və mineralların kifayət qədər və düzgün nisbətdə qəbul edilməsidir. Bu, uşağın sağlam böyüməsi və normal inkişafı üçün əsas şərtdir. Xüsusilə uşaqlıq dövründə bu cür qidalanma daha vacib hesab olunur. Çünki məhz bu dövr orqanizmin ən sürətlə inkişaf etdiyi mərhələdir.– Belə ki, uşaqlıq dövründə sümüklər möhkəmlənir, beyin inkişaf edir, immun sistemi formalaşır. Və məhz bu dövrdə qidalanmada yol verilən səhvlər gələcəkdə ciddi sağlamlıq problemlərinə səbəb ola bilir.

Bilirsiniz, düzgün qidalanma sadəcə uşağı doyurmaq deyil. Düzgün qidalanma sağlam böyümə, güclü immunitet, yaxşı fiziki inkişaf və sağlam gələcək deməkdir.

Körpəlik dövründə ən ideal qida ana südüdür. Ana südü körpəni infeksiyalardan qoruyur, immun sistemini gücləndirir və sağlam inkişaf üçün lazım olan bütün maddələrlə təmin edir. Bu dövrdə düzgün qidalanma gələcəkdə allergiya, piylənmə və bir sıra xroniki xəstəliklərin qarşısının alınmasına kömək edir.

Düzgün qidalanma boy və çəkinin normal inkişafını təmin edir, diqqət və yaddaşı gücləndirir, xəstəliklərə qarşı müqaviməti artırır. Gündəlik rasionda süd və süd məhsulları, ət, balıq, yumurta, meyvə-tərəvəzlər, taxıl məhsulları və faydalı yağlar mütləq yer almalıdır. Bu qruplar bir-birini tamamlayaraq orqanizmin ehtiyaclarını ödəyir.

**Valideynlər övladlarının qida rasionundan xüsusilə almanı əskik etməməlidirlər**

– *Bəzən uşaq və yeniyetmələr meyvə və tərəvəzlərdən imtina edirlər. Valideynlər onları məcburən yedirtmək istəsələr də, çox vaxt buna nail ola bilmirlər.*

– Sağlam və düzgün qidalanmadan söz açırıqsa, burada meyvə və tərəvəzlərin əhəmiyyətini, onun insan sağlamlığındakı rolunu da xüsusi qeyd etməliyik. Məhz meyvə və tərəvəz sağlam qidalanmanın əsas sütunlarından biri, vitamin və mineral mənbəyidir. Meyvə və tərəvəzlər lif baxımından zəngindir (lif həzm sistemini normallaşdırır), uzun müddət toxluq hissi yaradır və artıq çəkinin qabağını alır, antioksidant xüsusiyyətləri var. Və bu xüsusiyyət hüceyrələri sərbəst radikallardan qoruyur. Məsələn çiyələk, böyürtkən, qırmızı bibər antioksidant baxımından zəngindir. Sinirləri və əzələləri təmin edir. Rəng və dad müxtəlifliyi ilə qidalanmanı daha maraqlı edir.

Kalsium əsasən süd və süd məhsullarının (qatıq, pendir, kefir), maqnezium ispanağın, kahının, cəfərinin, çərəzin (badam, qoz), günəbaxan və balqabaq toxumunun, somon, skumbriyanın, fosfor isə süd və süd məhsullarının, toyuğun, mal ətinin, lobyanın, mərciməyin, noxudun, badam və günəbaxan toxumunun tərkibində olur.

Valideynlər övladlarının qida rasionundan xüsusilə almanı əskik etməməlidirlər. Mütəmadi olaraq onlara mövsümi meyvə və tərəvəzlər verməlidirlər. Rəngli meyvələr daha çox müxtəlif vitamin və antioksidantlarla təmin edir. Hər gün fərqli rəng və növdə meyvə yemək balanslı qidalanma üçün tövsiyə olunur, amma bunu valideynlər övladına məcburən deyil, təmkinlə, başa salaraq verməlidirlər.

Tərəvəzləri maraqlı formada təqdim etmək, yeməkləri rəngarəng hazırlamaq və uşaqları yemək hazırlanmasına cəlb etməklə onlarda meyvə və tərəvəz yeməyə maraq yaratmaq olar.

– *Düzgün qidalanmanın uşaqların fiziki və zehni inkişafına təsiri nələrdir?*

– Sağlam qidalanan uşaqlar enerjili, diqqətli və fəallıqları ilə seçilirlər. Onların yaddaşları və öyrənmə qabiliyyətləri yüksək olur, xəstəliklərə qarşı müqavimətləri artır. Eyni zamanda, psixoloji vəziyyətlərinə də müsbət təsir göstərir.

**"Yeniyetmələrin dərs və hazırlıq saatları uzun olduğu üçün qidalanma rejimi düzgün qurulmalıdır"**

– *Müasir dövrdə yeniyetmələrin həyat tərzi əvvəlki dövrlərlə müqayisədə daha gərgin və yüklüdür. Xüsusilə yuxarı sinif şagirdlərinin bir tərəfdən məktəb dərslərinə, digər tərəfdən buraxılış və qəbul imtahanlarına gərgin hazırlıqlarını, imtahan stresi ilə üz-üzə qalmasını görürük. Bu sıx qrafik fonunda qidalanma çox zaman arxa plana keçir. Bütün bunların onların sağlamlığına təsiri barədə nə deyə bilərsiniz?*

– Birmənalı olaraq deyə bilərəm ki, bu onların sağlamlığı üçün gələcəkdə ciddi fəsadlara yol aça bilər.

Bir həkim olaraq görürük ki, son zamanlar yeniyetmələr arasında onurğa deformasiyaları da kəskin artıb, (skolioz, kifoz) qidalanma skoliozun birbaşa səbəbi olmasa da, balanssız qidalanma sümük-əzələ sistemini zəiflədərək bu patalogiyanın əmələ gəlməsinə zəmin yaradır. Rasionda Ca (kalsium), Mq (maqnezium), P (fosfor), zülal çatışmazlığı sümük-əzələ sisteminə təsir edir.

Yeniyetməlik dövrü orqanizmin hələ də inkişaf etdiyi, hormonal dəyişikliklərin baş verdiyi və zehni yüklənmənin artdığı bir mərhələdir. Bu dövrdə düzgün qidalanmamaq tez yorulmaya, diqqət dağınıqlığına, yaddaş zəifləməsinə və əsəbi davranışlara səbəb ola bilər.

Yeniyetmələrin dərs və hazırlıq saatları uzun olduğu üçün onların qidalanma rejimi düzgün qurulmalıdır. Saatlarla ac qalmaq mədədə turşuluğun artmasına, halsızlığa və baş ağrılarına səbəb olur. Bu səbəbdən dərslər arasında yüngül və faydalı qəlyanaltılar qəbul etmək tövsiyə olunur. Meyvələr, quru meyvələr, qoz-fındıq, evdə hazırlanmış sendviçlər və yoğurt bu baxımdan ideal seçimdir.

Yeniyetmələr üçün səhər yeməyi günün ən vacib qida qəbuludur. Səhər yeməyi beynin enerji ehtiyacını ödəyir və dərs zamanı diqqətin yüksək səviyyədə qalmasına kömək edir. Səhər yeməyini buraxan şagirdlər tez yorulur, dərslərdə passiv olur və məlumatı mənimsəməkdə çətinlik çəkirlər. Buna görə də səhər yeməyində yumurta, süd və süd məhsulları, tam taxıllı çörək, yulaf sıyığı və meyvələrə üstünlük verilməlidir.

Sağlam və balanslı qidalanma yeniyetmələrin həm fiziki sağlamlığını qoruyur, həm də gələcək təhsil uğurlarında mühüm rol oynayır.

– *Qidalanma rejimi necə olmalıdır?*

– Uşaqlar gündə 4-5 dəfə müəyyən saatlarda qidalanmalıdır. Uzun fasilələr olmamalıdır. Bu, həzm sisteminin düzgün işləməsinə və enerji balansının qorunmasına kömək edir.

**Fastfudlar inkişaf etməkdə olan orqanizm üçün çox ciddi fəsadlar yaradır**

– *Bu gün uşaq və yeniyetmələrimiz ev yeməklərindən daha çox fastfudlara üstünlük verirlər. Buna bir həkim olaraq münasibətinizi bilmək istərdik.*

– Haqlısınız, çox təəssüf ki, biz istəməsək də övladlarımızın rasionu fastfud yeməklərindən, yüksək kalorili içkilərdən, paketlənmiş şirniyyatlardan ibarətdir. Bütün bunlar inkişaf etməkdə olan orqanizm üçün çox ciddi fəsadlar yaradır. Fastfudlar yüksək kalorili, lakin qida dəyəri az olan qidalardır. Onlar artıq çəkiyə, piylənməyə, xolesterinin yüksəlməsinə, həzm pozuntularına, ürək-damar xəstəliklərinə və vitamin çatışmazlığına gətirib çıxara bilər.

Şəkərli qazlı içkilər və enerji içkiləri kariesə, qan şəkərinin yüksəlməsinə, diqqət pozuntusu və əsəbiliyə, paketlənmiş şirniyyatlar isə vitamin və mineral çatmamazlığına, immun zəifliyinə, allergik reaksiyalara səbəb olur. Bu qidalar yalnız fiziki inkişafa deyil, zehni və psixoloji inkişafa da mənfi təsir göstərir.

Vaxt azlığı bəhanəsi ilə fastfud, qazlı içkilər və şirniyyatlara tez-tez müraciət etmək xüsusilə yeniyetmələrin sağlamlığı üçün ciddi risk yaradır. Bu qidalar orqanizmi lazımi vitamin və minerallarla təmin



etmir, əksinə, qeyd etdiyim kimi artıq çəkiyə, mədə problemlərinə və immunitetin zəifləməsinə səbəb olur. İmtahan dövrlərində isə bu cür qidalar stresi və yorğunluğu daha da artırır.

Xüsusən, enerji içkiləri yeniyetmələrdə qəfil ürək dayanmasına səbəb olur. Uşaqlar üçün ən sağlam içki sudur.

– *Bu qidalardan tam imtina etmək mümkündürmü?*

– Tam imtina çətin ola bilər, lakin ciddi şəkildə məhdudlaşdırmaq mümkündür və lazımdır. Əsas odur ki, bu qidalar gündəlik rasionun bir hissəsinə çevrilməsin.

**Evdən çıxan uşağın çantasına sağlıqlı qəlyanaltı qoyulmalıdır**

– *Valideynlər övladlarında sağlam qidalanma vərdişlərini necə formalaşdıra bilərlər? Bununla bağlı nə tövsiyə edərdiniz?*

– Onlar öz davranışları, həyat tərzləri ilə nümunə olmalıdırlar. Evdə sağlam qidalar hazırlanmalı, istifadə olunan ərzaqlar mümkün qədər təbii və təzə olmalı, qızartmalardan çox qaynadılmış və ya bişirilmiş yeməklərə üstünlük verilməlidir. Uşaqlarda ailəcə birlikdə oturaraq yemək vərdişi formalaşdırılmalıdır.

Valideynlərin rolu uşaqlara qadağa qoymaqdan çox, yönləndirmək və qida rasionunu planlaşdırmaqdan ibarətdir. Bu məsələdə xüsusilə anaların üzərinə böyük məsuliyyət düşür. Onlar qidalanmanı əvvəlcədən planlaşdırmalı, övladlarının dərs və hazırlıq qrafikini nəzərə almalıdırlar. Evdən çıxan uşağın çantasına sağlıqlı qəlyanaltı (meyvə, çərəz, ev şəraitində hazırlanmış sendviç) qoyulmalıdır.

Uşaqlara emosional dəstək vermək çox vacibdir. Stres altında olan yeniyetmədə iştahsızlıq və ya həddindən artıq çox yemək ola bilər.

Bir həkim kimi hesab edirəm ki, övladlarımızın sağlamlığının qorunması üçün düzgün qidalanma onların təhsil uğurları qədər önəmlidir.

**Samirə KƏRİMOVA**

### Valideynlərin nəzərinə

**Gündəlik rasionda süd və süd məhsulları, ət, balıq, yumurta, meyvə-tərəvəzlər, taxıl məhsulları və faydalı yağlar mütləq yer almalıdır.**

**Mütəmadi olaraq onlara mövsümi meyvə və tərəvəzlər verməlidirlər.**

**Səhər yeməyində yumurta, süd və süd məhsulları, tam taxıllı çörək, yulaf sıyığı və meyvələrə üstünlük verilməlidir.**

**Uşaqlar gündə 4-5 dəfə müəyyən saatlarda qidalanmalıdır. Uzun fasilələr olmamalıdır.**

**Fastfud, qazlı içkilər və şirniyyatlara tez-tez müraciət etmək xüsusilə yeniyetmələrin sağlamlığı üçün ciddi risk yaradır.**

İnsan övladının qədir-qiyməti onun məqsədyönlü və şüurlu həyatı dərk olunanda, başa düşüləndə daha rövnəqli və tutumlu olur. Ömür yolunda parlaq iz salmağın təsir dolayları nə qədər geniş və əhatəli olsa da, müdriklik baxımından o daima özünün qüdsi keyfiyyətləri ilə ətrafdakılardan fərqlənir, peşə, sənət yollarında püxtələşmək məramı ilə güc tapdıqca, həyatına bir daha qonacaq şan-şöhrət zirvəsini fəth etməklə yeni uğurlar ardınca təkmil addımlar atmaqda da davam edir, bu işdən mənəvi zövq alır. Aydın həqiqətdir ki, hər bir insanın həyatında parlaq ömür səhifələri, uzun və keşməkeşli həyat kredosu yüksək tələbkarlıq, əzmkarlıq nümunəsi olaraq daim çalışmağı, əməyi sayəsində ətrafdakılara münasibətilə cəmiyyətdə özünə layiqli mövqe qazana bilirlər.

# Uğura aparan yol



Adına, şərafətinə, insanlığına və ləyaqətinə xüsusi hörmət bəslədiyim tədqiqatçı-alim, həssas pedaqoq, qədirbilən insan Vidadi Paşa oğlu Bəşirov da belə şəxsiyyətlərdəndir. O, şaxtalı, sazaqlı bir qış günündə 14 yanvar 1951-ci il tarixində Neftçala rayonunun Xolqarabucaq kəndində anadan olub. Mənim onunla tanışlığım isə xoş təsadüf nəticəsində baş verib. Onunla görüşməzdən əvvəl haqqında xeyli ürəkaçan sözlər eşitmişdim. Xoş ovqat bəxş edən xeyirxah insan, elmin, təhsillənməyin qapılarını şagirdlərinin, tələbələrinin üzünə səxavətlə açan təcrübəli müəllim ucqar bir guşədə, Neftçala rayonunun Qırmızıkənd və Xəzərkənd kəndlərində nümunəvi coğrafiya müəllimi olaraq qabaqcıl təcrübəsi ilə müəllim adının ehtişamını uğurlu fəaliyyəti ilə reallaşdırmağa böyük rəvac verməklə özünəxas tədris-tərbiyə metodikası ilə fərqli, effektiv iş nümunəsi göstərməyə qadir keyfiyyətləri barədə yerli dövri mətbuatdan da xəbərdar idim. O xüsusən, məktəb və müəllim təcrübəsinə aid silsilə məqalələrlə “Qələbə” (Salyan) və “Gündoğar” (Neftçala) qəzetlərində müntəzəm məqalələr dərc etdirir, zəhmət və istedad ucalığına aparan yaradıcılıq fəzilətlərinin ilkin təməl prinsiplərini yüksək etimadla, potensial zəka mədəniyyəti ilə araya-ərsəyə gətirirdi.

Sözün birmənalı yozumu ilə söyləsək, onu qeyd etmək yerinə düşər ki, həyatı boyu o, müəllim dünyasından xəbərdar olmağın min bir möcüzəsinə məftunluqla inanıb geniş pedaqoji ictimaiyyətə çatdırmaqda əsl fədakarlıq nümunəsi göstərməklə, ürəyinin hərarətini və gözlərinin nurunu böyüyən nəslin vətən üçün gərəkli bir şəxsiyyət kimi yetişməsinə bəxş edib. 1974-cü ildən başlayan 75 illik həyat növrağının əlli ildən çoxunu bu müqəddəs peşə səltənətinə həsr edib.

Müəllimlik amalına sidqi-ürəklə bağlanan, bu yaradıcı ömürdən nəşət götürən Vidadi müəllim çalışdığı kollektivlərdə ona tapşırılan işin öhdəsindən həmişə layiqincə gəlib. Bu yolda qazandığı inkişaf imkanlarını neçə-neçə həmkarlarının metodik iş prinsiplərini müəyyənləşdirən mənəvi-intellektual, etik-mədəni amala xidmət edən yüksək səviyyəli yazıları ilə sevimli kollektivinə başucalığı gətirib. Maarif və ziya işığı saçan məktəbdarlıq əməyi ilə sıx surətdə bağlı olub, iş, sənət xiridarlığının böyük bir qismini müəllim statusu ilə davam etdirməklə, qonşu kəndlərdə də özünün maarifləndirici məqalələri ilə böyük ad-san sahibinə çevrilib. O, peşəkar müəllim fəaliyyətinin düz dörd ilini məhz, o illərdə respublikanın ən sayılıb-seçilən Qırmızıkənd kənd orta məktəbində nümayiş etdirdi. Xüsusən, uğurlu əməyinə həmişə həssas qayğı və münasibət göstərən məktəb direktoru, əməkdar təşviqatçı Abuzər Ağayevin zəngin tövsiyələri onun üçün “qızıl qayda”ya çevrildi.

Müəllim ömrünün sonrakı mərhələsi isə Xəzər kənd orta məktəbində davam etdi. 1978-1982-ci illərdə Neftçala rayonunun demək olar ki, ən ucqar kəndi olan Xəzər kənd ümumtəhsil məktəbində əvvəlcə sinifdənxaric və məktəbdənkənar işlər üzrə təşkilatçı, sonra isə təlim-tərbiyə işləri üzrə direktor müavini təyin olundu.

Haqqında ümidverici, inamlı sözlər söylənildi. Rayon rəhbərliyində onun haqqında xoş sözlər deyilirdi. Məsul vəzifələrə dəvət aldı. Lakin, elm və təhsil sferasında olmaq həyatının əsas məramını bu müqəddəs peşə yolunda sınasa da, o, elmi, təhsili həyatının mənası bildi. Növbəti tədris ilində (1982-ci ildə) sənədlərini Azərbaycan Dövlət Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun “Pedaqogika tarixi” ixtisası üzrə əyani aspiranturasına təqdim etdi və qəbul olundu. Beləliklə, onun Bakı günləri başladı. Üç il aspirant olduğu indiki Təhsil İnstitutunun elmi əməkdaşlarının rəğbətinə dərin məna verərək, 9 fevral 1989-cu ildə “XIX əsrin ikinci yarısında Azərbaycanda pedaqoji fikrin inkişafına mütərəqqi rus pedaqoji ideyalarının təsiri” mövzusunda namizədlik dissertasiyasını hasilə gətirdi.

Vidadi Bəşirov elmi fəaliyyətə başladığı dövrdən bəri pedaqogikanın nəzəriyyəsi və tarixi problemləri üzrə ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinə genişmiqyaslı istiqamət verən metodik tövsiyələr hazırlayıb, özəl və dövlət təhsil müəssisələri üçün pedaqogika tarixi kursu üzrə milli kurikulum (təhsil proqramları) və tədris vəsaitlərinin hazırlanmasında digər həmkarlarına yardımçı olub. Xüsusən, pedaqogika tarixi ixtisası üzrə formalaşan V.Bəşirov öz üzərində məsuliyyət hiss edən tədqiqatçıdır. Onun yaradıcı aləmi müxtəlif səpkidə olan məktəb və pedaqoji fikir tariximizə həmişə aydın çıraq tutub, milli-mənəvi dəyərlərimizin öyrənilməsi yolunda nəzəri-təcrübi tədqiqatlar üçün faydalı təhsilləndirici mənbə rolu oynayıb. V.Bəşirovun elmi yaradıcı fəaliyyətinin məhsulu olan “Nəriman Nərimanovun ictimai-tərəqqi ideyalarının tarixi əhəmiyyəti və onun gənc nəslə aşılanması yolları” (1990), “Azərbaycan maarifpərvərlərinin yaradıcılığında vətənpərvərlik tərbiyəsi məsələləri” (1994), “Azərbaycan pedaqoji fikrində milli tərəqqi ideyaları (XIX əsrin sonu, XX əsrin əvvəlləri” (2008) adlı milli ruha, vətənpərvərliyə, mənəvi-tarixi yaddaşın qorunmasına səsləyən kitabları oxucular tərəfindən maraqla qarşılanıb. O, milli-pedaqoji mətbuat tariximizin uğurlu ənənələrini davam etdirən “Pedaqogika” adlı elmi-pedaqoji, bədii-publisistik jurnalın (2006) redaksiya heyətinin üzvü kimi pedaqoji biliklərin öyrənilməsi və tətbiqi sahələrində səmərəli iş aparır.

O, uzun illərin tədqiqat məhsulu olan fundamental “Azərbaycan milli izahlı ensiklopedik pedaqoji lüğət” (2005) və “Milli pedaqogikanın elmi yenilikləri” (2015) adlı tədris vəsaitlərinin hazırlanmasında iştirak edib. Vidadi müəllimin elmlər doktoru proqramı üzrə üzərində işlədiyi “Azərbaycan maarifpərvərlərinin mütərəqqi pedaqoji ideyaları (1870-1920-ci illər)” mövzusunda doktorluq dissertasiyasında son tamamlama və təkmilləşdirmə işləri aparılır.

Vidadi Bəşirov məhsuldar alimdir. Onun mənəvi-etik və pedaqoji səpkili 250-dən çox qəzet və jurnal məqalələri pedaqoji ictimaiyyətdə böyük maraq doğurub.

O, 1997-1999-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun “Tədqiqatçı” Azad Həmkarlar Birliyinin sədri, 1998-1999-cu illərdə isə ictimai əsaslarla AETPEİ-nin nəzdində fəaliyyət göstərən birləşdirilmiş-ixtisaslaşdırılmış Müdafiə Şurasının elmi katibi olub.

Vidadi Bəşirov hazırda Azərbaycan Dillər Universitetinin Psixologiya və pedaqogika kafedrasında dosent vəzifəsində çalışır. Universitetin ictimai-mədəni həyatında yaxından iştirak edir. “Təhsil” fakültəsi üzrə elmi-metodik Şuranın sədridir. Son illərdə o, milli-mənəvi dəyərlərimizlə bağlı uğurlu axtarışlarını yenə də böyük səylə davam etdirir. Bu il onun yubiley yaşıdır. Yubilyar alimi təbrik edir, ona elmi-pedaqoji fəaliyyətində uğurlar arzulayırıq.

**İlham CAVADOV,**
*Təhsil İnstitutunun direktor müavini, pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

**aşağıda adı çəkilən kafedrada vakant vəzifəni tutmaq üçün müsabiqə**

## ELAN EDİR:

*Dram rejissoru və səhnə plastikası kafedrası üzrə kafedra müdiri - 1 yer*

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39
**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**

## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 374 **Sifariş:** 137

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2009-cu ildə Alıyev İntiqam İntizam oğluna verilmiş B-150839 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Qərbi Kaspi Universiteti** tərəfindən 2021-ci ildə Dəmirova Lalə Rövşən qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Qubadov Yalçın Nurxan oğluna verilmiş ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 182 nömrəli tam orta məktəbin IX sinfini 2025-ci ildə bitirmiş Abdullayev Xəyal Əfrail oğluna verilmiş F-035258 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbi (keçmiş Xaçmaz stansiya 45 nömrəli dəmiryolu məktəbi) 1993-cü ildə bitirmiş Balayev Vəli Nurbala oğluna verilmiş 191775 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2017-ci ildə Mulina Diana Andreyevnaya verilmiş A-110636 nömrəli fərqlənmə bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 3 nömrəli tam orta məktəbi 1987-ci ildə bitirmiş Əliyeva Şəfa Hüseyn qızına verilmiş 377197 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Astara rayon** Şiyəkəran kənd 1 nömrəli tam orta məktəbin VIII sinfini 1985-ci ildə bitirmiş Quliyev Ədalət Məsləhət oğluna verilmiş AZ-II-864454 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 5 nömrəli internat tipli xüsusi ümumtəhsil məktəbi 2016-cı ildə bitirmiş Allahyarov Nicat Salman oğluna verilmiş AN-574908 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt Dövlət Universiteti** tərəfindən 2018-ci ildə Məmmədov Sultan Surət oğluna verilmiş C-002888 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Neftçala şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Sadıqov Kamran Mövlan oğluna verilmiş E-589929 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1982-ci ildə bitirmiş Hüseynova Sənubər Mirələm qızına verilmiş AZ-II-454191 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Xanqaraqoyunlu kənd tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Abbasova Ruhəngiz Qənbər qızına verilmiş A-352362 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 1 nömrəli tam orta ümumtəhsil məktəbi 1991-ci ildə bitirmiş Məmmədova Zəminə Eldar qızına verilmiş 270 nömrəli attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri Universiteti** tərəfindən 1999-cu ildə Əhmədov Riham Mahir oğluna verilmiş A-053185 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2006-cı ildə Hacıyeva Səkinə Rəhman qızına verilmiş BB-I-003727 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 100 nömrəli tam orta məktəbi 1993-cü ildə bitirmiş Yəhyayeva Könül Əkbər qızına verilmiş 080956 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Tibb Universitetini** 1995-ci ildə bitirmiş Kadryrova Aıda Pashayvnaya verilmiş AC-I-000118 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Qaxbaş kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Həmidli Dinarə Mehdi qızına verilmiş E-593929 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Zərnə kənd tam orta məktəbi 1997-ci ildə bitirmiş Seyidov Anar Faiq oğluna verilmiş A-113812 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Zəhmətabad kənd tam orta məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Qasımova Leyla Səlif qızına verilmiş B-166587 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Məmmədova (Ramazanova) Arzu Dibir qızına verilmiş B-239857 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Aşağı Tala kənd 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Məmmədov Osman Əli oğluna verilmiş B-399986 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** M.Füzuli adına 15 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1994-cü ildə bitirmiş Rəhimov Mehman Bayram oğluna verilmiş B-036605 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş İsmayılova Nilufər Tahir qızına verilmiş E-662368 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2009-cu ildə Əlizadə Nəcibə Mahmud qızına verilmiş BB-I-011594 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sabirabad şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Cahangirova (Məmmədova) Heyranə Qəhraman qızına verilmiş B-660066 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 43 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Musayeva (Bağırova) Ülviyyə Mirzahir qızına verilmiş B-249081 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 15 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Məmmədova Jalə Aydın qızına verilmiş A-286170 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 264 nömrəli məktəbb-liseyi 2008-ci ildə bitirmiş Məmmədova Mələkxanım İlham qızına verilmiş B-494209 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Beynəlxalq Universitet** tərəfindən 2010-cu ildə Salahova Aygün Bağır qızına verilmiş BB-I-016457 nömrəli dipom itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 24 nömrəli tam orta ümumtəhsil məktəbi 2004-cü ildə bitirmiş Qasımov Elşən Nəsib oğluna verilmiş B-116611 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Salyan rayon** Yenikənd kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş İsmayılova (Sadıqova) Simuzər Əvəzağa qızına verilmiş A-030936 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dillər Universiteti** tərəfindən 2021-ci ildə Talıblı Gülgəz Fuad qızına verilmiş C-111313 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

ARTİ-nin Tədris Resursları Mərkəzindən Əsgər Quliyev ailəsi ilə birlikdə professor Abuzər Bağırov və Abdulla Bağırova qardaşları

**İSRAYIL MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Abşeron rayon Xırdalan şəhər 7 nömrəli tam orta ümumtəhsil məktəbin kollektivi məktəbin təlim-tərbiyə işləri üzrə direktor müavini Aydın Balakişiyevə anası

**GÜLŞƏN BALAKİŞİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.